RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 160 (9615) 31 iyul 2024-cü il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



**İlham Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti seçilməsindən 27 il ötür**

## Olimpiya hərəkatında İlham Əliyev modeli



MOK-un 1997-ci il iyulun 31-də keçirilmiş növbəti Baş Məclisində bütün məsələlərin müzakirəsi zamanı bəlli oldu ki, istedadlı idmançılarımızın, məşqçi və mütəxəssislərimizin bir qismi ölkədən gedib, idmançıların məşq və yarışlarda iştirakı, onların sosial vəziyyəti acınacaqlı haldadır. MOK-un nəinki beynəlxalq idman qurumları ilə, hətta ölkənin idman təşkilatları ilə belə əlaqəsi yox idi.

Bu vəziyyətlə barışmayan Baş Məclis MOK İcraiyyə Komitəsinin yeni tərkibini seçdi. Səsvermə nəticəsində həmin vaxt Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, Milli Məclisin deputatı olan İlham Əliyev MOK-un prezidenti seçildi.

Elə ilk günlər göstərdi ki, MOK çox düzgün və qətiyyətli addım atıb. Komitə ilk növbədə mövcud durumu düzgün qiymətləndirməklə idmanımızı dirçəltməyin yollarını dəqiq müəyyənləşdirib hərəkətə keçdi. Olimpiya hərəkatının real vəziyyəti öyrənildi, mövcud problemlər aşkara çıxarılaraq araşdırıldı.

İlham Əliyevin rəhbərliyi altında Milli Olimpiya Komitəsinin görməli olduğu işlər həddən artıq çox idi.

→ 5



## İlham Əliyevdən Bakıya növbəti "yaşıl töhfə"

### Prezident İlham Əliyev Bakıda "Gənclik" metrosu yanında yaradılan yeni parkda işlərin gedişi ilə tanış olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda "Gənclik" metrosu yanında yaradılan yeni parkda işlərin gedişi ilə tanış olub.**

AZƏRTAC xəbər verir ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov dövlətimizin başçısına parkda görülən və həyata keçiriləcək işlər barədə məlumat verdi.

Paytaxtımızın daha da müasirləşdirilməsi, şəhərin abadlaşdırılması istiqamətində görülən işlər yaşıllıq zolaqlarının və parkların salınması ilə paralel şəkildə davam etdirilir. Belə istirahət məkanlarından daha biri Azərbaycan Prezidentinin 2023-cü il 18 avqust və 2024-cü il 13 yanvar tarixli sərəncamlarına əsasən Nərimanov rayonunda salınan yeni parkdır.

"Antena" parkı kimi tanınan bu ərazi əvvəllər baxımsız vəziyyətdə olub. İstirahət parkının yenidən qurulması və bərpası ilə əlaqədar bu ərazidə yararsız vəziyyətdə olan bəzi tikililər sökülüb. Söküntü işlərindən sonra parkın ərazisi daha da genişləndirilib və 19 hektara çatdırılıb.

Qeyd olundu ki, parkın ərazisindəki mövcud tarixi inzibati bina saxlanılıb və həmin binada bərpa işləri aparılacaq.

→ 2

## Əhsən sənə, Hidayət!



İlham Əliyevin MOK-un prezidenti və dövlət başçısı kimi yetişdirdiyi Azərbaycan gəncləri işğalçı Ermənistana da əvvəlcə idman meydanlarında, təmiz və aşkar qarşılaşmada qalib gəldilər!

Sonra ləyaqətli müharibə apararaq hərb meydanında düşməni darmadağın etdilər!

* Bizə edilənlərin qisasını hərb meydanında aldılar!

* Otuzillik işğala hərb meydanında son qoydular!

İndi isə Azərbaycan idmançısı bizə düşmən münasibəti bəsləyən ölkənin paytaxtında, təkbətək çarpışmada, dünyanın gözü qarşısında fransalı idmançının kürəyini yerə çırparaq təmiz qələbə qazandı!

* Fransanın göbəyi sayılan Parisdə üçrəngli dövlət bayrağımızı ucaltdı!

* Əzəmətli himnimizi səsləndirdi!

* Qələbəmizin sonsuz sevincini bütün dünyaya yaydı!

Açılış mərasimində ölkəmizə qarşı atılan qərəzli, riyakar və şərəfsiz addımların cavabını şərəflə, mərdliklə, kişi kimi verdi!

Bəli, biz beləyik!

Dostlarla səmimi dostluq edirik.

Düşmənlərin cavabını isə hərtərəfli, açıq-aşkar şəkildə veririk!

İdman arenası mərdlərin açıq döyüş meydanıdır!

→ 4

## Parisdə Azərbaycan himninin səslənməsi bütün təxribatlara layiqli cavab oldu

Azərbaycanın 44 günlük Vətən müharibəsindəki qələbəsindən sonrakı və ondan öncəki tarixə baxsaq Fransanın bu bölgədə həm Türkiyə, həm də Azərbaycana qarşı yeritdiyi siyasət heç də ürəkaçan olmayıb. Bu siyasətin ana xəttini isə islamofobiya, türkofobiya, azərbaycanofobiya təşkil edib. Postmüharibə dövründə də bu məsələlər daha açıq-aydın görünür. Bu müddətdə bir çox dövlətin maskasının yırtıldığının şahidi olduq.

Fransa bütün cəhdlərlə Azərbaycanın uğurlarına kölgə salmağa, Cənubi Qafqazda millitarist siyasət həyata keçirməyə çalışır və bu məqsədlə Ermənistanı silahlandırır. Onları müharibəyə həvəsləndirir. Bir növ böyük bacı rolunda Ermənistanı bu istiqamətə yönləndirmək siyasəti həyata keçirir. Prezident İlham Əliyevin qəti və milli maraqlara söykənən siyasəti isə hətta preventiv olaraq bunların qarşısını alır. Bu gün Fransanın neokolonialist, həmçinin Azərbaycana qarşı çirkin siyasəti ölkəmiz tərəfindən, demək olar ki, bloklanıb. Bu ölkə gün keçdikcə siyasətinin qurbanına çevrilməkdədir.

Paris Olimpiadası böyük idman yarışları olmasına baxmayaraq, Fransanın siyasi girovuna çevrilib. Açılış mərasimindəki təşkilat komitəsinin yarıtmaz fəaliyyəti, aparıcıların dövlətlərə qarşı münasibəti, Şimali və Cənubi Koreyanı bir-birindən ayıra bilməmələri, Azərbaycan idmançılarının keçidindəki verilən yaramaz şərhlər, Ermənistana olan münasibət bütün məsələləri çılpaqlığı ilə ortaya qoydu. Dünya gördü ki, Fransa Olimpiya Oyunlarının keçirilməsinə nəinki hazır, heç layiq də deyil. Narazılıqlar gündən-günə artmaqdadır. Çin nümayəndələr heyətinin qərarı, digər ölkələrin bəyanatları, idmançılara pis münasibət, onların yaşayış şəraitindəki problemlər, cinayətkarlığın artması, hotellərdə ağır vəziyyət, selektiv münasibətlər Olimpiada tarixinə ən rüsvayçı günlər kimi yazılır.

Dövlət başçımızın dediyi kimi, qələbələrimiz hələ qabaqdadır. İdman yarışlarındakı bu uğurlar da gücümüzü göstərir. Azərbaycan bütün sahələrdə güclü dövlətdir. Azərbaycan idmançıları ölkəmizi şərəflə, layiqincə təmsil edirlər. İdmançımızın bu qələbəsi həm də müstəqil Azərbaycanın qüdrətinin bir işarəsidir. Ksenofobiyanın tüğyan etdiyi bir ölkədə Azərbaycan idmançıları bayrağımızı daha da yüksəklərə qaldıracaqlar. Təmsilçilik siyasəti fonunda ölkəmizin gücünü, qüdrətini ortaya qoya biləcəklər.

→ 4

## Beynəlxalq Olimpiya Komitəsinin prinsiplərinə böyük zərbə

### Fransa bütün platformalardan neokolonializm siyasəti üçün istifadə edir

Fransanın Ermənistana həmişə fərqli, isti münasibəti olub, bunun başlıca səbəbi isə təkcə bu ölkədə erməni lobbiçiliyinin güclü olması deyil, həm də məkrli məqsəddir. Fransa ermənilərin xoşuna gəlmək üçün əlindən gələni edir ki, gələcəkdə Cənubi Qafqazda Ermənistandan alət kimi daha rahat istifadə edə bilsin. Bu özü də kolonial siyasətin Cənubi Qafqaz istiqamətində cəhdi kimi qiymətləndirilməlidir. Ermənistana hücum silahlarının verilməsi, Azərbaycana qarşı aşkar qərəzli mövqeyin sərgilənməsi regionda təhlükəli strategiyanın həyata keçirilməsi elementlərini təşkil edir. Fransa Ermənistandan regionda gərginlik yaratmaq, yenidən münaqişə elementlərini formalaşdırmaq üçün alət rolunda istifadə edir. Ona görə də hər fürsətdə ermənilərin könlünü almağa çalışır. Bunu Olimpiada çərçivəsində də müşahidə etdik.

→ 4



## Azərbaycan elektrik enerjisinin əlçatanlığına görə də öndədir

Azərbaycanın elektroenergetika sisteminin tarixi 1883-cü ildə Bakıda Nobel qardaşları tərəfindən hər birinin gücü 75 at gücündə 3 buxar turbinindən ibarət 220 volt gərginlikli generasiya güclərinin quraşdırılması ilə başlanıb. 1901-ci ildə 2000 at gücü olan "Bibiheybət" elektrik stansiyası, 1902-ci ildə isə Qara şəhərdə (indiki Ağ şəhər) 2000 at gücündə olan elektrik stansiyası istismara verilib. XX əsrin 40-cı illərində dərin neft quyularının qazılması və istismarının planlaşdırılması elektrik enerjisinə olan tələbatın artması ilə müşayiət olunub.

→ 9



## Ən maraqsız Olimpiada

### Bağlanış mərasiminin ən ucuz biletlərini də alan yoxdur

Rus pravoslav Kilsəsi biabırçı şounun rejissorlarının Avropa sivilizasiyasına və xristianlığa nifrət nümayiş etdirdiyini bildirib, məşhur amerikalı iş adamı İlon Mask isə oyunların açılış mərasimini "xristianlara açıq hörmətsizlik" adlandırıb.

Bu arada, Olimpiya Oyunlarında triatlon turniri Sena çayının çirklənməsi səbəbindən təxirə salınıb. Beynəlxalq Triatlon İttifaqının saytı xəbər verir ki, Paris Olimpiadasının təşkilatçıları Sena çayında keçiriləcək kişilər arasında triatlon üzgüçülük yarışını təxirə salmaq qərarına gəliblər. Kişilərin yarışı iyulun 30-da, qadınların yarışının 31-də, qarışıq estafetin isə avqustun 5-də keçirilməsi nəzərdə tutulmuşdu.

Bildirildiyinə görə, güclü yağışlardan sonra onsuz da təhlükəli bakteriyaların yer aldığı Sena çayının suyunun keyfiyyətinin daha da pisləşməsi səbəbindən triatlonçuların çayda üzgüçülük məşqləri də ləğv edilib.

→ 4

## Sağlam ətraf mühit uğrunda mübarizə böyük sərmayələr tələb edir



Azərbaycanın "yaşıl gündəliyi" artıq dünyaya bəllidir. Bu istiqamətdə işlərimiz hələ COP29-un ölkəmizdə keçirilməsinə qərar verilməzdən çox əvvəl başlanıb. Cari ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması ilə ölkəmizin COP29-a ev sahibliyi etməsi də, əslində, bir-birini tamamlayır. O ki qaldı sözügedən mövzuya, buna Prezident İlham Əliyev dəfələrlə toxunub. Elə iyulun 20-də Şuşada keçirilən II Qlobal Media Forumunu xatırlayaq.

→ 8

# İlham Əliyevdən Bakıya növbəti "yaşıl töhfə"

## Prezident İlham Əliyev Bakıda "Gənclik" metrosu yanında yaradılan yeni parkda işlərin gedişi ilə tanış olub









*Əvvəli 1-ci səh.*

Yenidən qurulan parkda sakinlərin mənalı istirahəti və asudə vaxtlarının səmərəli təşkili üçün hər cür şərait yaradılacaq. Belə ki, burada müasir tələblərə cavab verən iki restoran inşa olunur. Həmçinin burada 2 fəvvarə də quraşdırılacaq. Bu da istirahət məkanına əlavə gözəllik verəcək.

Müasir istirahət kompleksinin ərazisinin 13,8 hektarında yaşıllıq sahələri salınacaq. Burada işıqlandırma sistemi yeni layihə əsasında ən müasir standartlara uyğun şəkildə qurulacaq. Parkda piyada və velosiped yolları çəkiləcək, uşaq-əyləncə və idman meydançaları yaradılacaq.

Bildirildi ki, yenidən qurulan parkla yaxınlıqdakı "Dədə Qorqud" parkını əlaqələndirəcək tunelin də inşasına başlanılıb.

Dövlətimizin başçısına, eyni zamanda Yaşıllaşdırma Təsərrüfatı Birliyinin Binə qəsəbəsi ərazisində yeni salınmış istixanası barədə də məlumat verildi. Qeyd olundu ki, istixanada 1 milyonadək gül yetişdiriləcək. Bu da ölkəmizə gül idxalının həcmini əhəmiyyətli dərəcədə azaltmağa imkan verəcək.

Yenidən qurulan park, həmçinin Azərbaycan dövlətinin ekoloji tarazlığın qorunması, yaşıllıqların artırılması, o cümlədən "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində gördüyü işlərə daha bir töhfə olacaq.

## Azərbaycan Mərakeş ilə dostluq və əməkdaşlığın inkişafına böyük əhəmiyyət verir

### Mərakeşin Kralı əlahəzrət VI Məhəmmədə

Əlahəzrət!

Əziz Qardaşım!

Mərakeş Krallığının milli bayramı münasibətilə Sizə və Sizin simanızda qardaş xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Biz xoş ənənələrə əsaslanan Azərbaycan-Mərakeş dostluq və əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsinə böyük əhəmiyyət veririk. Əminəm ki, xalqlarımızın rifahı naminə dövlətlərarası əlaqələrimizin daha da möhkəmləndirilməsi, qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığımızın genişləndirilməsi yolunda birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, qardaş xalqınıza daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 iyul 2024-cü il*

## Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci və 13-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Torpaq Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 478 (Cild I); 2024, № 3, maddə 250) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 9-cu maddənin 3-cü hissəsinin birinci cümləsində "müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanı tərəfindən" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydaya uyğun olaraq" sözləri ilə əvəz edilsin;

1.2. 10-cu maddəyə aşağıdakı məzmunda 4-1-ci hissə əlavə edilsin:

"4-1. Yay və qış otlaqları, örüş və biçənək sahələri istisna edilməklə, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı məqsədilə kənd təsərrüfatı yerlərinin məqsədli təyinatının dəyişdirilməsi torpaq sahələrinin mülkiyyətçiləri (onların razılığı ilə istifadəçiləri və icarəçiləri) tərəfindən həyata keçirilir və onların müraciəti əsasında daşınmaz əmlakın dövlət reyestrində qeydiyyat aparıldığı andan başa çatır.";

1.3. 12-ci maddə üzrə:

1.3.1. 2-ci hissədən və 4-cü hissənin birinci cümləsindən "(uqodiyaları)" sözü çıxarılsın;

1.3.2. 3-cü hissə aşağıdakı redaksiyada verilsin:

"3. Məqsədli təyinatına əsasən kənd təsərrüfatı yerlərinə əkin, çoxillik əkmələrin altında olan torpaqlar, örüş, otlaq və biçənək sahələri aid edilir.";

1.3.3. 5-ci hissədə "orqanı qarşısında vəsatət qaldırırlar" sözləri "orqanının müəyyən etdiyi orqana (quruma) müraciət edirlər" sözləri ilə əvəz edilsin;

1.4. 13-cü maddənin 2-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"2. Kənd təsərrüfatı təyinatlı torpaqlarda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) məlumatlandırılmaqla kənd təsərrüfatının səmərəli təşkil edilməsi məqsədilə müvəqqəti tikililər inşa edilə və quraşdırıla bilər. Kənd təsərrüfatı təyinatlı torpaqlarda əsaslı tikililərin və qurğuların, habelə işçilərin (personalın) müvəqqəti yaşaması məqsədləri üçün yaşayış təyinatlı tikililərin inşa edilməsi və quraşdırılması bu Məcəllənin 13-1-ci maddəsinə uyğun olaraq həyata keçirilir.";

1.5. aşağıdakı məzmunda 13-1-ci maddə əlavə edilsin:

**"Maddə 13-1. Kənd təsərrüfatı təyinatlı torpaqlarda tikililər**

1. Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı üçün nəzərdə tutulmuş, habelə işçilərin (personalın) müvəqqəti yaşaması məqsədləri üçün yaşayış təyinatlı əsaslı tikililər sahəsi 5 hektardan az olmayan və vahid sərhəd daxilində yerləşən kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin (yay və qış otlaqları, ümumi istifadədə örüş sahələri istisna olmaqla) 1 faizindən artıq olmayan hissəsində inşa edilə və quraşdırıla bilər. Həmin tikililərin inşa edilməsinə və quraşdırılmasına torpaq sahəsinin mülkiyyətçisinin (onun yazılı razılığı ilə istifadəçisinin və ya icarəçisinin) müraciəti əsasında Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq icazə verilir. Bu məqsədlər üçün torpaq sahəsinin kateqoriyasının və məqsədli təyinatının dəyişdirilməsi tələb olunmur.

2. İstixanalar və suvarma infrastrukturlarının inşası və quraşdırılması zamanı bu maddənin 1-ci hissəsində nəzərdə tutulan torpaq sahələrinin minimum həddinə və tikinti əmsalının maksimum ölçülərinə dair məhdudiyyətlər tətbiq edilmir.

3. Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı üçün inşa edilmiş tikililər, işçilərin (personalın) müvəqqəti yaşaması məqsədləri üçün yaşayış təyinatlı tikililər, tikintisinə icazə tələb olunan suvarma infrastrukturu və istixanalar üzərində hüquqlar "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada daşınmaz əmlakın dövlət reyestrində dövlət qeydiyyatına alınır.

4. Tikinti əmsalından tam istifadə edildikdə torpaq sahəsinin əsaslı tikili olmayan hissəsi başqa şəxsin mülkiyyətinə və ya istifadəsinə keçdikdə, torpaq sahəsinin həmin hissəsinin yenidən tikinti əmsalına cəlb edilməsinə yol verilmir. Bu qadağa həmin hissənin bölündüyü və ya digər torpaq sahəsinə birləşdirildiyi hallara da şamil edilir.

5. Tikinti əmsalından qismən istifadə edildikdə, torpaq sahəsinin əsaslı tikili olmayan hissəsi başqa şəxsin mülkiyyətinə və ya istifadəsinə keçdikdə, həmin hissədə tikililərin inşası üçün yol verilən hədd müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiq etdiyi qaydaya uyğun olaraq hesablanır.

6. Bu maddənin 4-cü hissəsində nəzərdə tutulmuş məhdudiyyət və 5-ci hissəsinə əsasən hesablanan tikintinin yol verilən hədləri yalnız inşa edilmiş əsaslı tikilinin mövcud olduğu dövrdə tətbiq olunur.

7. Kənd təsərrüfatı təyinatlı torpaq sahəsində layihələndirilən tikinti obyektinin tikinti layihəsində həmin obyektin inşası üçün bu maddənin 1-ci hissəsində müəyyən olunan faiz nisbəti nəzərə alınmaqla torpaq sahəsinin tələb olunan hissəsinin sərhədləri ayrıca göstərilir.

8. Kənd təsərrüfatı təyinatlı torpaq sahəsinin tikinti əmsalına cəlb edilməsi və tikinti əmsalı tətbiq edilən torpaq sahəsi barədə məlumatlar daşınmaz əmlakın dövlət reyestrində və dövlət torpaq kadastrında saxlanılan məlumatlara əlavə edilməsi üçün tikintiyə və istismara icazə verən orqan (qurum) tərəfindən daşınmaz əmlakın dövlət reyestrinə ötürülür.

9. Bu maddənin 1-ci hissəsinə uyğun olaraq inşasına yol verilən tikinti obyektlərinin kənd təsərrüfatı məhsullarının istehsalı və emalı məqsədləri üçün istifadəsi halları istisna olmaqla, torpaq sahəsinin kateqoriyası dəyişdirilmədən digər məqsədlər üçün istifadəsinə və istismar təyinatının dəyişdirilməsinə yol verilmir.";

1.6. 36-cı maddənin 1-ci hissəsinin birinci cümləsində "dövlət" sözü "müvafiq" sözü ilə əvəz edilsin;

1.7. 80-ci maddənin dördüncü abzasından "(dincə qoyulan)" sözləri çıxarılsın.

**Maddə 2.** Bu Qanun 2025-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyun 2024-cü il*

## Sumqayıt Kimya Sənaye Parkının ərazisinin genişləndirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalı sahəsində pilot layihənin həyata keçirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 12 aprel tarixli 3843 nömrəli Sərəncamının icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Sumqayıt Kimya Sənaye Parkının ərazisinin genişləndirilməsi məqsədilə Sumqayıt şəhərinin inzibati ərazisində yerləşən və bu Sərəncama əlavə olunan Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tərtib etdiyi yerquruluşu planlarında göstərilmiş, dövlət mülkiyyətinə aid 29,63 hektar (Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Azərikimya" İstehsalat Birliyinin istifadəsində olan 26,86 hektar və həmin torpaq sahəsinə bitişik 2,77 hektar) torpaq sahəsinin icarəyə vermək hüququ ilə həmin Nazirliyin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin istifadəsinə verilməsi ilə bağlı iki ay müddətində tədbirlər görüb Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və Sumqayıt Şəhər İcra Hakimiyyəti bu Sərəncamdan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 iyul 2024-cü il*

## "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1194-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1194-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 9-cu maddəsinin 3-cü hissəsinin birinci cümləsində, 12-ci maddəsinin 5-ci hissəsində, 13-cü maddəsinin 2-ci hissəsinin birinci cümləsində və 13-1-ci maddəsinin 5-ci hissəsində müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 9-cu maddəsinin 3-cü hissəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 12-ci və 13-1-ci maddələrinin 5-ci hissələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.4. həmin Məcəllənin 13-cü maddəsinin 2-ci hissəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə müvafiq ərazidə tikintiyə icazə verən Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və yerli icra hakimiyyəti orqanları nəzərdə tutulurlar.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. üç ay müddətində:

2.1.1. normativ hüquqi aktların "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1194-VIQD nömrəli Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.1.2. Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 13-cü maddəsinin 2-ci hissəsində nəzərdə tutulmuş müvəqqəti tikililər barədə məlumatlandırma mexanizmi ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.1.3. həmin Məcəllənin 13-1-ci maddəsinin 1-ci hissəsinə uyğun olaraq, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı məqsədilə tikinti obyektlərinin inşasına və quraşdırılmasına tikintiyə icazə icraatı çərçivəsində fəaliyyət sferasına (maraqlarına) toxunulan və rəy alınması zəruri olan qurumların siyahısı, onlar tərəfindən verilmiş rəylərin əhatə dairəsi barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.1.4. həmin Məcəllənin 13-1-ci maddəsinin 5-ci hissəsinə uyğun olaraq, tikinti əmsalına qismən cəlb edilmiş torpaq sahəsinin başqa şəxsin mülkiyyətinə və ya istifadəsinə keçən əsaslı tikili olmayan hissəsində tikililərin inşası üçün yol verilən həddin hesablanması qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

2.2. "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1194-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və yerli icra hakimiyyəti orqanları Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 13-cü maddəsinin 2-ci hissəsində nəzərdə tutulmuş müvəqqəti tikililər barədə məlumatların Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə və Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə təqdim edilməsini təmin etsinlər.

4. "Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 4 avqust tarixli 176 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 486 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1-ci, 2.1-1-ci və 2.1-2-ci bəndlər müvafiq olaraq 2.1-2-ci, 2.1-ci və 2.1-3-cü bəndlər hesab olunsun;

4.2. 2.1-ci bənddə "həmin Məcəllənin" sözləri "Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 9-cu maddəsinin 3-cü hissəsinin birinci cümləsində, 12-ci maddəsinin 5-ci hissəsində, 13-cü maddəsinin 2-ci hissəsinin birinci cümləsində, 13-1-ci maddəsinin 5-ci hissəsində," sözləri ilə əvəz edilsin;

4.3. 2.1-2-ci bənddə "Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin" sözləri "həmin Məcəllənin" sözləri ilə əvəz olunsun, həmin bəndə "47-ci" sözlərindən əvvəl "45-ci maddəsinin 4-cü bəndinin ikinci cümləsində," sözləri əlavə edilsin və həmin bənddən "9-cu maddəsinin 3-cü hissəsində, 12-ci maddəsinin 5-ci hissəsində," sözləri çıxarılsın;

4.4. 2.1-3-cü bəndə "Məcəllənin" sözündən sonra "12-ci maddəsinin 5-ci hissəsində, 13-1-ci maddəsinin 5-ci hissəsində," sözləri əlavə edilsin;

4.5. aşağıdakı məzmunda 2.1-1-ci və 2.1-4-cü bəndlər əlavə edilsin:

"2.1-1. həmin Məcəllənin 9-cu maddəsinin 3-cü hissəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;";

"2.1-4. həmin Məcəllənin 13-cü maddəsinin 2-ci hissəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə müvafiq ərazidə tikintiyə icazə verən Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və yerli icra hakimiyyəti orqanları nəzərdə tutulurlar;";

4.6. 2.2-1-ci bənd ləğv edilsin.

5. "Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 291 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 158 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 12 iyun tarixli 99 nömrəli Fərmanı) 1-ci hissəsinin üçüncü abzasından "dincə qoyulmuş torpaqlar," sözləri çıxarılsın.

6. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 7 mart tarixli 818 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 3, maddə 439 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması və rəqəmsal kadastr xəritəsinin tərtib olunması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

6.1. 1.3-cü bənddən, 2.3.2-ci yarımbənddən (hər iki halda) və 3.3-cü bənddən ismin müvafiq hallarında "(uqodiyalar)" sözü çıxarılsın;

6.2. 6.1.1-ci yarımbənddən "(uqodiyalarına)" və "dincə qoyulmuş torpaqlara," sözləri çıxarılsın.

7. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatı təyinatlı torpaqların idarə edilməsi ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 27 aprel tarixli 1323 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 4, maddə 328 (Cild I) 1.2-ci bəndində ", çoxillik əkmələrin altında olan və dincə qoyulmuş kənd təsərrüfatı yerlərinin (uqodiyaların)" sözləri "və çoxillik əkmələrin altında olan kənd təsərrüfatı yerlərinin" sözləri ilə əvəz edilsin.

8. Bu Fərmanın 1-ci və 3-7-ci hissələri 2025-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 iyul 2024-cü il*

# Baş nazir Əli Əsədov İran Prezidentinin andiçmə mərasimində iştirak etmək üçün Tehrana səfər edib

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov İran İslam Respublikası Prezidentinin andiçmə mərasimində iştirak etmək üçün Tehrana səfər edib.**

Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetinin Mətbuat xidmətindən məlumat verilib.





# Baş nazir Əli Əsədov Tehranda İranın yeni təyin olunmuş Birinci vitse-prezidenti ilə görüşüb





**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyulun 30-da Tehranda İran İslam Respublikasının yeni təyin olunmuş Birinci vitse-prezidenti Məhəmməd Reza Areflə görüşüb.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Əli Əsədov Məhəmməd Reza Arefi İranın Birinci vitse-prezidenti vəzifəsinə təyin olunması münasibətilə təbrik edib.

Görüşdə iki dövlət arasında tarixi köklərə əsaslanan münasibətlərin hazırkı dönəmdə ticarət-iqtisadi, nəqliyyat, enerji, humanitar və bir çox digər sahələrdə inkişafından məmnunluq ifadə olunub.

Azərbaycan-İran əməkdaşlığının müxtəlif istiqamətlərdə genişləndirilməsi, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında müzakirələr aparılıb.

# Azərbaycanın Baş naziri İran Prezidentinin andiçmə mərasimində iştirak edib

**Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq, Baş nazir Əli Əsədov iyulun 30-da İran İslam Respublikasının yeni seçilmiş Prezidenti Məsud Pezeşkianın andiçmə mərasimində iştirak edib.**

Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetinin Mətbuat xidmətindən məlumat verilib.




# "İnflyasiya və Qiymət Monitorinqi" üzrə İşçi Qrupun növbəti iclası keçirilib

**İyulun 30-da "İnflyasiya və Qiymət Monitorinqi" üzrə İşçi Qrupun Nazirlər Kabineti Aparatının rəhbəri Rüfət Məmmədovun sədrliyi ilə iclası keçirilib.**



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iclasda cari ildə ölkədə istehlak bazarında qiymətlərin dəyişməsi, hökumətin antiinflyasiya tədbirləri, habelə ötən iclasda aidiyyəti qurumlara verilmiş tapşırıqların icrası ətraflı müzakirə olunub.

İclasda, xarici amillərin, habelə ərzaq bazarında idxal olunan məhsulların qiymət indekslərindəki dəyişmələr və ölkədə həyata keçirilən antiinflyasiya tədbirləri nəticəsində Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən 2023-cü ildə birrəqəmli inflyasiya hədəfinə nail olunmaqla yanaşı, cari ilin ötən dövrü ərzində də inflyasiyanın minimal səviyyədə qorunub saxlanıldığı qeyd edilib. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2024-cü ilin iyun ayında 12 aylıq inflyasiya 1,1 faiz təşkil edib. 2024-cü ilin yanvar-iyununda orta illik inflyasiya 0,7 faiz olub.

Tədiyə balansının profisitli olması qiymət sabitliyinin əsas lövbəri olan məzənnə sabitliyini dəstəkləyib. Profisitli tədiyə balansı şəraitində valyuta bazarında tarazlığın qorunması inflyasiya idxalının məhdudlaşmasında xüsusi rol oynayıb. 2024-cü ilin 6 ayında manatın nominal effektiv məzənnəsi 3 faiz bahalaşıb ki, bu da idxal inflyasiyasına azaldıcı təsir göstərən amildir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən "Qiymət İzləmə Tətbiqinin" yaradılması və təkmilləşdirilməsi istiqamətində, o cümlədən ölkədə istehlak qiymətləri indeksinə daxil olan ərzaq və qeyri-ərzaq məhsullarının, əhaliyə göstərilmiş ödənişli xidmətlərin qiymətlərinin formalaşması üzrə aidiyyəti qurumların məlumatlarının inteqrasiyası sahəsində həyata keçirilən tədbirlər barədə təqdimat edilib.

İclasda İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti, Kənd Təsərrüfatı Nazirliyi, Səhiyyə Nazirliyi, Dövlət Gömrük Komitəsi və Mərkəzi Bank tərəfindən görülən işlərə dair məlumat verilib.

İclasın yekununda daxili bazarda sağlam rəqabət mühitinin təmin olunması, qiymətlərin monitorinqi, inflyasiyanın iqtisadi artım üçün məqbul səviyyədə saxlanılması istiqamətində zəruri işlərin davam etdiriləcəyi bildirilib. Ötən müddət ərzində qanunvericilikdə rəqabət məsələləri, dərman vasitələri bazarı və s. istiqamətdə həyata keçirilən təkmilləşdirmələrin bu proseslərə müsbət təkan verəcəyi vurğulanıb.

# Azərbaycan ilə Pakistan arasında strateji tərəfdaşlıq gündəliyi müzakirə olunub



**İyulun 30-da xarici işlər naziri Ceyhun Bayramov Pakistan İslam Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş səfiri Qasım Mohiuddi ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə səfir etimadnaməsinin surətini nazir Ceyhun Bayramova təqdim edib. Nazir səfiri təyinat münasibətilə təbrik edib, ona fəaliyyəti müddətində uğurlar arzulayıb.

Səfir iki ölkə arasında münasibətlərin daha da inkişafı üçün bütün səylərini səfərbər edəcəyini diqqətə çatdırıb.

Görüşdə ölkələrimiz arasında mövcud strateji tərəfdaşlıq gündəliyi, Azərbaycan Prezidentinin Pakistana son rəsmi səfəri zamanı əldə olunmuş razılıqların icrası məsələləri və gələcək planlar müzakirə edilib.

Tərəflər iki dost və qardaş ölkə arasında strateji əməkdaşlıq əlaqələrini yüksək qiymətləndirib, bir çox istiqamətlərdə əməkdaşlığın daha da dərinləşməsinin zəruriliyini vurğulayıblar.

Cari il iyulun 3-də Azərbaycanın və Türkiyənin prezidentləri, Pakistanın Baş naziri arasında keçirilmiş üçtərəfli görüşün əhəmiyyəti qeyd olunub, ümumilikdə üçtərəfli formatın möhkəmləndirilməsinin üç ölkənin xalqlarının inkişafı ilə yanaşı, regional və qlobal sülhün, sabitliyin möhkəmlənməsinə xidmət edəcəyi diqqətə çatdırılıb.

Birləşmiş Millətlər Təşkilatı, habelə Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı kimi bir sıra regional və beynəlxalq təşkilatlar daxil olmaqla, çoxtərəfli formatlar çərçivəsində qarşılıqlı dəstəyin əhəmiyyəti qeyd edilib. Pakistanın 2025-2026-cı illər üzrə BMT Təhlükəsizlik Şurasının üzvü seçilməsi münasibətilə təbriklər ifadə olunub.

Görüşdə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində iki ölkə arasında yüksək səviyyəli təmaslar üçün əlavə imkanın yarandığı bildirilib.

Bununla yanaşı, görüşdə qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Baş prokuror paytaxtın Nərimanov rayonunda vətəndaşları qəbul edib

**Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.**





Baş Prokurorluğun Mətbuat xidmətindən verilən məlumata görə, iyulun 30-da Baş prokuror Kamran Əliyev Nərimanov Rayon Prokurorluğunun inzibati binasında Bakı şəhərinin Nərimanov rayonundan və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbulda iştirak edən 63 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra Kamran Əliyev prokurorluq əməkdaşlarına konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb, eləcə də prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olaraq işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılmasına dair təklifləri dinləyib.

# Antiazərbaycançı şəbəkənin məkrli planı iflasa məhkumdur

## Əhsən sənə, Hidayət!





**Cüdoçumuz Hidayət Heydərov Vətəndən uzaqdakı qələbəsi ilə doğma Azərbaycana Azərbaycan boyda sevinc bəxş etdi!**

*Biz hamımız Avropa və Dünya çempionumuzun Olimpiya çempionu da olacağına qəlbən inanırdıq!*

*Amma Azərbaycanla soyuq müharibə aparan Fransanın idmançısını Fransanın paytaxtı Parisdə məğlub etməsi bir özgə qələbə, bir özgə ləzzətdir!*

Bəli, idman siyasəti sevmir, ondan kənardır.

İdman güclərin sınandığı meydandır!

Bu meydanda müxtəlif dövlətlərin təmsilçiləri qarşı-qarşıya gələrək hamının gözü qarşısında, müəyyən edilmiş qaydalar çərçivəsində mübarizə aparırlar.

**Azərbaycan belə mübarizəni - açıq-aşkar, mövcud qaydalar gözlənilməklə, güclünün qələbəsi ilə bitən mübarizəni sevir!**

Çünki bu xüsusiyyət xalqımızın xarakterindən irəli gəlir:

* riyakarlıqdan;
* xəbislikdən;
* çoxüzlülükdən;
* arxadan kürəyə bıçaq saplamaq kimi murdar əməllərdən uzaq olan, mərdcəsinə aparılan mübarizəni sevir!

**İlham Əliyevin MOK-un prezidenti və dövlət başçısı kimi yetişdirdiyi Azərbaycan gəncləri işğalçı Ermənistana da əvvəlcə idman meydanlarında, təmiz və aşkar qarşılaşmada qalib gəldilər!**

**Sonra ləyaqətli müharibə apararaq hərb meydanında düşməni darmadağın etdilər!**

* Bizə edilənlərin qisasını hərb meydanında aldılar!
* Otuzillik işğala hərb meydanında son qoydular!

*İndi isə Azərbaycan idmançısı bizə düşmən münasibəti bəsləyən ölkənin paytaxtında, təkbətək çarpışmada, dünyanın gözü qarşısında fransalı idmançının kürəyini yerə çırparaq təmiz qələbə qazandı!*

* Fransanın göbəyi sayılan Parisdə üçrəngli dövlət bayrağımızı ucaltdı!
* Əzəmətli himnimizi səsləndirdi!
* Qələbəmizin sonsuz sevincini dünyaya yaydı!

**Açılış mərasimində ölkəmizə qarşı atılan qərəzli, riyakar və şərəfsiz addımların cavabını şərəflə, mərdliklə, kişi kimi verdi!**

Bəli, biz beləyik!

Dostlarla səmimi dostluq edirik.

Düşmənlərin cavabını isə hərtərəfli, açıq-aşkar şəkildə veririk!

*İdman arenası mərdlərin açıq döyüş meydanıdır!*

*Burada hər şey açıq və görünən olur!*

*Hətta idmançılar bir-birilərinə badalağı da açıq şəkildə, qaydalar çərçivəsində vururlar!*

❖ ❖ ❖

* Üzdə bir söz deyib, arxada başqa əməl törətmək!
* "Sülh fondu"ndan müharibə üçün vəsait ayırmaq!
* Sülh danışıqlarını dalana çəkmək!
* Qisasçılığı körükləmək və revanşizmə təhrik etmək!
* Öz xeyrinə görə günahsız insanlara faciələr, bədbəxtliklər yaşatmaq!

**Bütün bunlar "siyasət"dir, idman deyil!**

Amma siyasətin də, siyasətçilərin də mərdi və namərdi olur!

*Açılış mərasimində bostanımıza daş atmışdılar.*

*O daşı götürüb tatamidə mədəni qaydada özlərinə qaytardıq!*

**Bunu İlham Əliyevin yetişdirdiyi milyonlarla gənclərdən biri olan Hidayət Heydərov etdi!**

**Əhsən sənə, Hidayət!**

❖ ❖ ❖

Fransa evsahibliyi etdiyi XXXIII Yay Olimpiya Oyunlarını elə ilk günlərdən siyasət meydanına, siyasi ambisiyalarının nümayişi meydanına çevirdi.

Açılış mərasimində "France-2" telekanalı "kiçik bacıları" hesab etdikləri hayların müdafiəsinə qalxdılar...

**Həm də hamının bildiyi həqiqətləri utanmadan təhrif etməklə:**

*"Ötən il Ermənistan üçün matəm ili olub"...*

*"Qarabağ Azərbaycan Ordusunun əlinə keçib"...*

*"Ermənistanla ərazi münaqişəsində olan Qafqaz respublikası" kimi sərsəmləmələr etməklə!*

Təbii, Azərbaycan öz etirazını rəsmi şəkildə bildirdi!

*Lakin təkbətək mübarizədə də Fransanı başa salıb yerini göstərməli idi!*

Fransa xristian dini müqəddəslərini parodiya edərək lağa qoya bilər!

* Demokratiyadır!
* Öz işidir!

Sonra həmin süjeti saytından da silər!

*Azərbaycanla isə hörmətlə davranmalıdır!*

Çünki Azərbaycan arxasında törədilən hər bir təxribata belə açıq meydanda layiqli cavab verməyi gözəl bacarır!

Necə ki tatamidə sübuta yetirdi!

**Bəli, Azərbaycan Fransaya elə Fransada qalib gəldi!**

**Bəxtiyar SADIQOV**

## Parisdə Azərbaycan himninin səslənməsi bütün təxribatlara layiqli cavab oldu

### Fransa Olimpiya Oyunlarını siyasi şouya çevirib

**"Azərbaycanın 44 günlük Vətən müharibəsindəki qələbəsindən sonrakı və ondan öncəki tarixə baxsaq, Fransanın bu bölgədə həm Türkiyə, həm də Azərbaycana qarşı yeritdiyi siyasət heç də ürəkaçan olmayıb. Bu siyasətin ana xəttini isə islamofobiya, türkofobiya, azərbaycanofobiya təşkil edib. Postmüharibə dövründə də bu məsələlər daha açıq-aydın görünür. Bu müddətdə bir çox dövlətin maskasının yırtıldığının şahidi olduq"**



"Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Vüqar İskəndərov bildirib ki, konkret faktlarla bu məsələ artıq təsdiqini tapıb. Azərbaycan və Ermənistan arasında danışıqların, münasibətlərin normallaşmasının vasitəçisiz müsbət istiqamətdə davam etməsinə baxmayaraq, Fransa başda olmaqla bəzi qüvvələrin kövrək sülhə xələl gətirmək cəhdləri fiaskoya uğramaqdadır. Fransa bütün cəhdlərlə Azərbaycanın uğurlarına kölgə salmağa, Cənubi Qafqazda millitarist siyasət həyata keçirməyə çalışır və bu məqsədlə Ermənistanı silahlandırır. "Onları müharibəyə həvəsləndirir. Bir növ böyük bacı rolunda Ermənistanı bu istiqamətə yönləndirmək siyasəti həyata keçirir. Prezident İlham Əliyevin qəti və milli maraqlara söykənən siyasəti isə hətta preventiv olaraq bunların qarşısını alır. Bu gün Fransanın neokolonialist, həmçinin Azərbaycana qarşı çirkin siyasəti ölkəmiz tərəfindən, demək olar ki, bloklanıb. Bu ölkə gün keçdikcə siyasətinin qurbanına çevrilməkdədir", - deyə o bildirib.

Deputat qeyd edib ki, Paris Olimpiadası böyük idman yarışları olmasına baxmayaraq, Fransanın siyasi girovuna çevrilib. Açılış mərasimindəki təşkilat komitəsinin yarıtmaz fəaliyyəti, aparıcıların dövlətlərə qarşı münasibəti, Şimali və Cənubi Koreyanı bir-birindən ayıra bilməmələri, Azərbaycan idmançılarının keçidindəki verilən yaramaz şərhlər, Ermənistana olan münasibət bütün məsələləri çılpaqlığı ilə ortaya qoydu. Dünya gördü ki, Fransa Olimpiya Oyunlarının keçirilməsinə nəinki hazır, heç layiq də deyil. Narazılıqlar gündən-günə artmaqdadır. Çin nümayəndələr heyətinin qərarı, digər ölkələrin bəyanatları, idmançılara pis münasibət, onların yaşayış şəraitindəki problemlər, cinayətkarlığın artması, hotellərdə ağır vəziyyət, selektiv münasibətlər Olimpiada tarixinə ən rüsvayçı günlər kimi yazılır.

V.İskəndərov Azərbaycan idmançısı Hidayət Heydərovun zəfərini xatırladaraq bildirib ki, onun Parisdə fransız idmançısına qalib gəlməklə Olimpiya çempionu olması, Azərbaycan himnini səsləndirməsi qələbələrimizin ardının gəldiyini göstərir: "Dövlət başçımızın dediyi kimi, qələbələrimiz hələ qabaqdadır. İdman yarışlarındakı bu uğurlar da gücümüzü göstərir. Azərbaycan bütün sahələrdə güclü dövlətdir. Azərbaycan idmançıları ölkəmizi şərəflə, layiqincə təmsil edirlər. İdmançımızın bu qələbəsi həm də müstəqil Azərbaycanın qüdrətinin bir işarəsidir. Hələ yarışlar davam edir. Bir neçə idman növlərində yaxşı nəticələr gözləyirik. Ksenofobiyanın tüğyan etdiyi bir ölkədə Azərbaycan idmançıları bayrağımızı daha da yüksəklərə qaldıracaqlar. Təmsilçilik siyasəti fonunda ölkəmizin gücünü, qüdrətini ortaya qoya biləcəklər".

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

## Beynəlxalq Olimpiya Komitəsinin prinsiplərinə böyük zərbə

### Fransa bütün platformalardan neokolonializm siyasəti üçün istifadə edir

**"Fransa XXXIII Yay Olimpiya Oyunlarından özünün olduqca təhlükəli planlarının həyata keçirilməsi üçün istifadə edir. Hər şeydən öncə Fransanın ermənilərə xüsusi jestinə diqqət yetirmək lazımdır. Erməni idmançıların açılış mərasimində keçidində onların Fransanın dostu adlandırılması, qondarma rejimin süqutu ilə bağlı əlamətlər ifadəsini işlətmələri, Azərbaycan təmsilçiləri keçən zaman isə Ermənistanla ərazi çəkişməsində olan Qafqaz ölkəsi kimi təqdim edilməsi Fransanın sonrakı mərhələdə hansı addımlara dayanan mövqe sərgiləyəcəyini aydın göstərir".**



Bu fikirləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu deyib. Deputat bildirib ki, Fransanın Ermənistana həmişə fərqli, isti münasibəti olub, bunun başlıca səbəbi isə təkcə bu ölkədə erməni lobbiçiliyinin güclü olması deyil, həm də məkrli məqsəddir. Fransa ermənilərin xoşuna gəlmək üçün əlindən gələni edir ki, gələcəkdə Cənubi Qafqazda Ermənistandan alət kimi daha rahat istifadə edə bilsin. Bu özü də kolonial siyasətin Cənubi Qafqaz istiqamətində cəhdi kimi qiymətləndirilməlidir. "Ermənistana hücum silahlarının verilməsi, Azərbaycana qarşı aşkar qərəzli mövqeyin sərgilənməsi regionda təhlükəli strategiyanın həyata keçirilməsi elementlərini təşkil edir. Fransa Ermənistandan regionda gərginlik yaratmaq, yenidən münaqişə elementlərini formalaşdırmaq üçün alət rolunda istifadə edir. Ona görə də hər fürsətdə ermənilərin könlünü almağa çalışır. Bunu Olimpiada çərçivəsində də müşahidə etdik", - deyə o əlavə edib.

E.Mirbəşiroğlu bildirib ki, Azərbaycan kolonializm siyasətinə qarşı qətiyyətli mübarizə apardığı üçün Fransa tərəfindən həzm edilmir. Bu, Fransanın ölkəmizə qarşı mövqeyini şərtləndirən amillərdəndir: "Paris bütün platformalardan neokolonializm siyasəti üçün istifadə edir. Olimpiya çərçivəsində də gördük ki, Fransa başqa xalqların, dinlərin nümayəndələrinə münasibətdə diskriminasiya hallarına yol verməkdən çəkinmir. Bu, Beynəlxalq Olimpiya Komitəsinin prinsiplərinə böyük zərbədir, onlarla ziddiyyət təşkil edir. Əslində, Olimpiada bərabərliyi, barışı özündə ehtiva edən hərəkatdır. Görünür ki, Fransa fərqli president ortaya qoymağa çalışır. Bu da gələcəkdə beynəlxalq Olimpiya hərəkatının nüfuzuna mənfi təsir göstərərək onun müsbət obrazını darmadağın edəcək".

Fransanın formalaşdırdığı presidentin başqa ölkələr tərəfindən əldə rəhbər tutula biləcəyinə toxunan deputat deyib ki, belə olan halda Olimpiya Oyunlarına maraq zəifləyəcək, bu oyunlar geosiyasətin alətinə çevriləcək. Bu da bütövlükdə Olimpiadanın gələcəkdə sıradan çıxmasını şərtləndirə bilər. Beynəlxalq ictimaiyyət Fransanın Olimpiya Oyunlarını təhlükəli maraqlarının bir alətinə çevirməsinə qarşı çıxmalı, bununla bağlı açıq mövqeyini ortaya qoymalı və sərt tədbirlər həyata keçirməlidir.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

## Ən maraqsız Olimpiada

### Bağlanış mərasiminin ən ucuz biletlərini də alan yoxdur

**Paris Olimpiadasının təşkilatçıları daha bir ciddi problemlə üzləşib. Belə ki, bağlanış mərasiminə biletləri alan yoxdur. Ən ucuz biletlər 45 avroya başa gəlir.**

Digər kateqoriyalara aid biletlər isə 600, 1100 və 1600 avroya satılır. Lakin Olimpiya Oyunlarının bağlanış mərasiminə marağın olmaması təkcə bu amillə izah edilə bilməz. Çünki Olimpiadanın biabırçılıqla keçirilmiş açılış mərasimində yaşanan xoşagəlməz təəssüratlar hələ uzun müddət tamaşaçıların yaddaşlarından silinməyəcək. Və onlar təkrarən həmin emosiyaları yaşamağa hazır deyillər. Özü də artıq məlumdur ki, avqustun 11-də "Stade de Frans" arenasında keçiriləcək bağlanış şousunun da ssenarisinin müəllifləri oyunların açılış mərasiminin təşkilatçıları olan mütəxəssislər və quruluşçu rejissorlar tərəfindən hazırlanıb.



Məlumdur ki, iyulun 26-da Sena çayında əsasən transgenderlər və transvestitlərin iştirakı ilə baş tutan və bir çoxlarının "gey-parad" adlandırdığı əcaib tədbirin təşkilatçılığı və bəzi səhnələr, İsa Məsihin təhqiramiz parodiyası xristianları qəzəbləndirib. Ümumilikdə isə bu, sağlam düşüncəli bütün insanların ciddi tənqidinə məruz qalıb.

Dövlət rəsmiləri mərasimdən məmnun olduqlarını bildirsələr də, sonradan təşkilat komitəsi və bəzi aktyorlar baş verənlərə görə üzr istəyiblər.

"Mən çox geniş düşüncəli insanam. Amma onların etdikləri biabırçılıq idi... Bu, dəhşətli idi". Bunu ABŞ-nin sabiq prezidenti Donald Tramp Fox News telekanalına müsahibəsində deyib. O əlavə edib ki, əgər Olimpiada onun prezidentliyi dövründə ABŞ-də keçirilsəydi, bütün dünyadakı xristianların hisslərinin incidilməsinə imkan verilməzdi.

Öz növbəsində, Fransa yepiskopluğu "xristianların istehza və məsxərəyə qoyulması" səhnələrini təəssüflə qarşılayıb.

Rus pravoslav Kilsəsi biabırçı şounun rejissorlarının Avropa sivilizasiyasına və xristianlığa nifrət nümayiş etdirdiyini bildirib, məşhur amerikalı iş adamı İlon Mask isə oyunların açılış mərasimini "xristianlara açıq hörmətsizlik" adlandırıb.

Bu arada, Olimpiya Oyunlarında triatlon turniri Sena çayının çirklənməsi səbəbindən təxirə salınıb. Beynəlxalq Triatlon İttifaqının saytı xəbər verir ki, Paris Olimpiadasının təşkilatçıları Sena çayında keçiriləcək kişilər arasında triatlon üzgüçülük yarışını təxirə salmaq qərarına gəliblər. Kişilərin yarışı iyulun 30-da, qadınların yarışının 31-də, qarışıq estafetin isə avqustun 5-də keçirilməsi nəzərdə tutulmuşdu.

Bildirildiyinə görə, güclü yağışlardan sonra onsuz da təhlükəli bakteriyaların yer aldığı Sena çayının suyunun keyfiyyətinin daha da pisləşməsi səbəbindən triatlonçuların çayda üzgüçülük məşqləri də ləğv edilib.

Qeyd edək ki, Paris meriyası bir gün əvvəl çayda Olimpiya yarışlarını ləğv etmək üçün heç bir səbəb görmədiklərini, lakin onları başqa bir tarixə təxirə sala biləcəklərini söyləyib.

2015-ci ildən bəri səlahiyyətlilər, kanalizasiya sistemini modernləşdirməklə Senada suyun keyfiyyətini yaxşılaşdırmaq üçün 1,4 milyard avro ayırıblar və gələn il Sena çayında çimmək üçün ərazilərin açılması planlaşdırılır.

Xatırladaq ki, bir müddət əvvəl ictimaiyyəti sakitləşdirmək məqsədilə Paris meri Ann İdalqo və Fransanın idman naziri Ameli Udea-Kastera dalğıc geyimində Sena çayında üzüblər. Eyni şeyi edəcəyinə söz verən Fransa Prezidenti Emmanuel Makron isə hələ də çaya girmək üçün özündə cəsarət tapa bilmir…

Son məlumata görə, Olimpiada yarışlarının Senadakı suyun çirklənməsinə görə təxirə salınmasına triatlonçuların reaksiyası bəlli olub. Bununla əlaqədar yerli BFMTV kanalı Fransa Triatlon Federasiyasının texniki direktoru Benjamin Mazenin dediklərindən sitat gətirir: "Bir çox idmançı qəzəbli və məyusdur, lakin bizə yalnız bütün problemlərə uyğunlaşmağa diqqət yetirmək qalır. Bu, xüsusi bir səhər idi".

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

## *Fransalı jurnalist:* "Olimpiadadakı təxribat Fransa hökuməti ilə erməni millətçilər arasındakı sıx koalisiyanın tərənnümüdür"

**"Olimpiya Oyunlarının açılış mərasimində azərbaycanlı və erməni idmançıların keçidi zamanı jurnalistin təxribatçı ifadələri Fransa hökuməti ilə erməni millətçiləri arasındakı sıx koalisiyanın tərənnümüdür".**



Bunu ölkənin "Musulmansenfrance" portalının təsisçisi, jurnalist-rejissor Jan Mişel Brən (Jean-Michel Brun) Fransanın "Fr2" telekanalında azərbaycanlı və erməni idmançıların keçidi zamanı işlətdiyi təxribatçı ifadələrə münasibətini bildirərkən deyib.

O bildirib ki, "Fr2" telekanalının jurnalisti Loran Delaus Laurent Delahousse ona öyrədilən dərsi təkrarlayır.

"Belə ki, Fransa hökuməti ilə erməni millətçiləri arasında sıx bir koalisiya var. Fransa hökuməti ilə Ara Toranyan və Murad Papazyanın təmsil etdiyi " Daşnaksütyun" partiyası arasında olan bu həmrəylik ölkənin siyasi dairələrinin mühüm bir hissəsində ermənipərəst ab-hava yaradıb. Halbuki ermənilərin özləri, hətta demək olar ki, əksəriyyəti bu ifratçı erməni partiyasının ideyalarını dəstəkləmirlər", - J.Brən bildirib.

## İlham Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti seçilməsindən 27 il ötür







# Olimpiya hərəkatında İlham Əliyev modeli

**1997-ci ilin iyulundan Azərbaycanın Olimpiya hərakatında başlanan islahatlar, yeniliklər MOK-un davamlı uğurları üçün real zəmin yaratdı. Məhz bu tarixi gün ərəfəsində Fransada keçirilən Yay Olimpiya Oyunlarında cüdoçumuz Hidayət Heydərovun fəxri kürsünün ən yüksək zirvəsinə qalxması, Parisdə Dövlət himnimizi səsləndirməsi Prezident İlham Əliyevin Azərbaycan idmanına, hər bir idmançıya göstərdiyi xüsusi diqqətin bariz təcəssümü oldu.**

### İdmanda yüksəliş mərhələsi

Tarixə nəzər yetirsək görərik ki, bu uğurlara elə də asan nail olunmayıb. Müstəqilliyinin bərpasından sonra, ötən əsrin 90-cı illərində Azərbaycanda mövcud olan böhran bir çox sahələrin, o cümlədən idmanın inkişafına da mənfi təsir etmiş, idman dövlət qayğısından kənarda qalmışdı.

Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəlməsi ilə idman sahəsi də ölkənin inkişaf istiqamətlərindən birinə çevrildi. Ümummilli Lider yaxşı bilirdi ki, ölkənin parlaq gələcəyi gənclər və idman siyasətinin düzgün yeridilməsi ilə bağlıdır. Odur ki, onun təməli vaxtında qoyulmalıdır. Buna görə də dahi liderin fərmanına əsasən, 1994-cü ildə Azərbaycanda Gənclər və İdman Nazirliyi yaradıldı. Bu, Azərbaycanın müasir idman tarixinin başlanğıcı oldu. Ardınca isə 1995-ci ildə Prezident yanında İdman Fondu yaradıldı.

Prezidentin imzaladığı fərmanda qeyd edilirdi ki, bu fondun yaradılmasında məqsəd ölkə əhalisi arasında sağlam həyat tərzinin təbliğ edilməsi və bədən tərbiyəsinin maddi-texniki bazasının inkişaf etdirilməsi, bu sahəyə ümumxalq yardımının təşkil olunması, gənclərin idmana marağının artması, Azərbaycan idmanının beynəlxalq miqyasa çıxması üçün real zəmin yaratmaqdır. Bu məqsədlə Prezident Fondundan müstəsna hal kimi İdman Fonduna 2 milyard manat məbləğində vəsait ayrıldı. Bütün bunlar Ulu Öndərin idmana nə qədər böyük önəm verdiyinin göstəricisi idi.

İlham Əliyevin Prezident seçilməsindən sonra isə Azərbaycanda idman sahəsi özünün intibah dövrünə qədəm qoydu. Bu gün dünyanın mötəbər idman yarışlarında, Olimpiya Oyunlarında Azərbaycan bayrağı yüksək zirvələrdə dalğalanır. Həmçinin paytaxt Bakının ən nüfuzlu beynəlxalq yarışların təşkilinə, yüksəksəviyyəli evsahibliyinə görə Azərbaycan böyük nüfuz qazanıb. I Avropa Oyunlarının, IV İslam Həmrəyliyi Oyunlarının, XV Avropa Gənclər Olimpiya Festivalının, futbol üzrə Avropa çempionatının final mərhələsinin 4 qarşılaşmasının, "Formula-1" Qran-prilərinin, müxtəlif idman növləri üzrə təşkil olunan dünya və qitə birinciliklərinin Azərbaycana həvalə edilməsi son illər ölkəmizdə bu sahədə görülən işlərə verilən ən yüksək qiymətdir.

2022-ci ildə Azərbaycanda Milli Olimpiya Komitəsinin (MOK) yaradılmasının 30 illiyi keçirildi. Prezident İlham Əliyev MOK-un 30 illiyinin qeyd edilməsi haqqında sərəncam imzaladı. Sənəddə qeyd olunur ki, Milli Olimpiya Komitəsi təsis olunduğu vaxtdan ölkədə idmanın dinamik inkişafı, Olimpiya ideallarının bərqərar olması və təşviqi üçün məqsədyönlü, ardıcıl fəaliyyət göstərib. Ötən müddət ərzində Azərbaycanın idman infrastrukturunun yenilənərək ən müasir standartlara cavab verən səviyyəyə gətirilməsində, idmanın kütləviliyinin artırılmasında və sağlam həyat tərzinin təbliğində Milli Olimpiya Komitəsinin mühüm xidmətləri olmuşdur.

Xatırladaq ki, sovet dövründə idmançılarımız yalnız SSRİ-nin adı və bayrağı altında beynəlxalq idman yarışlarına qatılırdılar. Ölkəsinin bayrağını qaldırmaq, himnini səsləndirmək o dövrün qalib Azərbaycan idmançısına nəsib olmurdu. Müstəqillik dövründə isə vəziyyət tamam başqadır. Doğrudur, ötən əsrin 90-cı illərinin əvvəllərində, xaos və anarxiya dövründə idmançılarımız hətta iştirak hüququ qazandıqları yarışlara belə vəsait çatışmazlığından qatıla bilmirdilər. 1992-1997-ci illərdə MOK-un fəaliyyəti heç də istənilən səviyyədə deyildi və qənaətbəxş sayıla bilməzdi. Çünki bu sahədə fəaliyyət planı lazımi səviyyədə qurulmamışdı.

Əslində, həmin dövrdə MOK qarşıda duran ümdə vəzifələrin həyata keçirilməsi üçün kənarda qalmamalı, aparıcı rol oynamalı idi. Təəssüf ki, MOK belə bir mövqe tuta bilmədi, ümumən, qurumun fəaliyyətinin ilk beşilliyi dövründə Milli Olimpiya Hərəkatında durğunluq hökm sürdü. Belə bir vəziyyət isə ölkə rəhbərliyini, idman ictimaiyyətini qane etmirdi. Çünki Olimpiya Oyunlarında yüksək nəticələr göstərmək lazım idi.

MOK-un 1997-ci il iyulun 31-də keçirilmiş növbəti Baş Məclisində bütün məsələlərin müzakirəsi zamanı bəlli oldu ki, istedadlı idmançılarımızın, məşqçi və mütəxəssislərimizin bir qismi ölkədən gedib, idmançıların məşq və yarışlarda iştirakı, onların sosial vəziyyəti acınacaqlı haldadır. MOK-un nəinki beynəlxalq idman qurumları ilə, hətta ölkənin idman təşkilatları ilə belə əlaqəsi yox idi.

Bu vəziyyətlə barışmayan Baş Məclis MOK İcraiyyə Komitəsinin yeni tərkibini seçdi. Səsvermə nəticəsində həmin vaxt Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, Milli Məclisin deputatı olan İlham Əliyev MOK-un prezidenti seçildi.

Elə ilk günlər göstərdi ki, MOK çox düzgün və qətiyyətli addım atıb. Komitə ilk növbədə mövcud durumu düzgün qiymətləndirməklə idmanımızı dirçəltməyin yollarını dəqiq müəyyənləşdirib hərəkətə keçdi. Olimpiya hərəkatının real vəziyyəti öyrənildi, mövcud problemlər aşkara çıxarılaraq araşdırıldı.

İlham Əliyevin rəhbərliyi altında Milli Olimpiya Komitəsinin görməli olduğu işlər həddən artıq çox idi. Bunların sırasında beynəlxalq əlaqələrin qurulması və genişləndirilməsi olduqca böyük əhəmiyyət kəsb edirdi. Qarşıya çıxan bütün problemləri bacarıqla həll edən İlham Əliyev Olimpiya hərəkatının məqsəd və vəzifələrini, fəaliyyət sisteminin ardıcıl istiqamətlərini də müəyyənləşdirdi.

Beləliklə, İlham Əliyevin MOK-un prezidenti seçilməsindən sonra ölkədə bədən tərbiyəsi və idman geniş vüsət aldı, respublikamız beynəlxalq Olimpiya hərəkatına qoşuldu, bu sahədə sistemli şəkildə işlər görüldü.





### Maddi-texniki bazanın yaxşılaşdırılmasının əsası qoyuldu

MOK-un fəaliyyətində canlanma təkcə olimpizmin təbliği, idmançılarımızın olimpiadalarda iştirakını təmin etməklə bitmədi, həm də bu sahədə maddi-texniki bazanın gücləndirilməsi sahəsini əhatə etdi. Bununla da ölkədə idmanın sürətli inkişafını təmin etmək və onun perspektivlərini genişləndirmək məqsədilə mövcud maddi-texniki bazanın vəziyyətində dönüşün əsası qoyuldu. MOK 1999-cu ildən öz obyektlərinin tikintisinə başladı və artıq 2000-ci ilin oktyabrında Bakıda ilk Olimpiya kompleksinin açılış mərasimi oldu. Bu sahədə paytaxtdan başlayan quruculuq bölgələrə doğru istiqamətləndi. Bölgələrdə Olimpiya idman komplekslərinin tikilib istifadəyə verilməsi idman hərəkatının tərəqqisi üçün çox önəmli rol oynadı.

Bütövlükdə 2000-ci ildən indiyədək ölkədə 50-yə yaxın Olimpiya İdman Kompleksi, həmçinin ixtisaslaşmış idman qurğuları tikilib istifadəyə verilib, mövcud idman obyektləri yenidən qurulub. Paytaxtımızda ən müasir idman infrastrukturu mövcuddur. Əvvəlki illərdə tikilən komplekslər əsaslı təmir olunub, eyni zamanda son illərdə bir neçə böyük stadion, idman qurğusu inşa edilib. Təxminən 70 min tamaşaçı tutumuna malik olan Olimpiya stadionunu xüsusi qeyd etmək lazımdır. Bundan əlavə, Milli Gimnastika Arenası, Su İdman Sarayı və Bakı Atıcılıq Mərkəzinin tikintisi üçün dövlət büdcəsindən böyük vəsait ayrılıb. Bunlarla yanaşı, Bakıda idman şəhərciyi fəaliyyət göstərir. İndi, demək olar ki, respublikamızın bütün bölgələrində Olimpiya kompleksləri fəaliyyət göstərir. Azərbaycanın ucqar rayonlarında müxtəlif idman növləri ilə məşğul olmaq üçün mövcud şərait var.

Ümumilikdə son illər ərzində həm bölgələrdə, həm də Bakıda idmanın inkişafına xüsusi diqqət yetirilməsi öz bəhrəsini verməkdədir.

### Olimpiadalarda medal yağışı

İdmana və gənclərə göstərilən qayğı çox keçmədi ki, öz bəhrəsini verdi. Atletlərimiz çıxış etdikləri son 7 olimpiadada möhtəşəm tarixi zəfərlərə imza atdılar. Onları bir daha xatırladırıq. 1996-cı ildə ABŞ-də keçirilən Atlanta Olimpiadasında 23 idmançı ilə təmsil olunan Azərbaycan 1 gümüş medalla 61-ci yeri tutmuşdu. İdmançılarımız arasında yeganə olaraq gümüş medalı 52 kq çəki dərəcəsində yarışan sərbəst güləşçimiz Namiq Abdullayev qazanmışdı.

2000-ci ildə Sidneydə 31 idmançı ilə təmsil olunan Azərbaycan 2 qızıl və 1 bürünc medalla dünyada 34-cü yeri, Avropa ölkələri arasında isə 23-cü yeri tutdu. Komandamıza ilk medalı qadınlar arasında stend atıcılığı yarışlarında Zemfira Meftahəddinova qazandırdı. Ölkəmizə ikinci qızıl medalı Atlanta oyunlarının gümüş mükafatçısı, güləşçi Namiq Abdullayev gətirdi. Boksçu Vüqar Ələkbərov bürünc medala sahib oldu.

21-ci minilliyin ilk Olimpiya Oyunlarında - "Afina-2004"də 12 idman növündə 38 idmançı ilə təmsil olunan Azərbaycan milli komandası bu möhtəşəm yarışdan vətənə 1 qızıl, 4 bürünc medalla qayıtdı. Yunan-Roma güləşi üzrə 66 kq çəki dərəcəsində 22 yaşlı Fərid Mansurov fəxri kürsünün ən yüksək pilləsinə qalxaraq qızıl, atıcılıq üzrə yarışlarda kiçikçaplı tapançadan 25 metr məsafəyə atəş açmada İradə Aşumova və stend atıcılığı üzrə təmsilçimiz, "Sidney-2000" Olimpiadasının qızıl mükafatçısı Zemfira Meftahəddinova Azərbaycan yığmasının hesabına iki bürünc medal yazdırdılar. Afinada yarımfinala yüksələn ilk Azərbaycan boksçusu Ağası Məmmədovun çəki problemi onu bürünc medalla kifayətlənməyə məcbur etdi. Ölkəmizin aktivinə yazılan 4 bürünc medaldan biri isə digər boksçumuz Fuad Aslanovun payına düşdü.

2008-ci ildə Pekində təşkil edilən Olimpiadada Azərbaycan 12 idman növündə 44 atletlə təmsil olundu. Komandamız Olimpiya Oyunlarında ilk dəfə olaraq hər üç əyarda medallar qazandı. Ölkəmizə Olimpiya qızılını cüdoçumuz Elnur Məmmədli (73 kq) gətirdi. Gümüş medalı yunan-Roma güləşində Rövşən Bayramov (55 kq) qazandı. Sərbəst güləşçimiz Xetaq Qazyumov (96 kq), qadın güləşində Mariya Stadnik (48 kq), boksda Şahin İmranov (57 kq) və cüdoda Mövlud Mirəliyev (100 kq) bürünc medala layiq görüldülər.

Beləliklə, Pekində keçirilən XXIX Yay Olimpiya Oyunlarında Azərbaycan yığması 6 medalla (1 qızıl, 1 gümüş, 4 bürünc) 204 ölkə arasında medalların sayına görə 27-ci, medalların növünə görə isə 39-cu yeri tutdu.

2012-ci ildə London Olimpiya Oyunlarında isə Azərbaycan idmançıları 9 medal (2 qızıl, 2 gümüş, 5 bürünc) qazandılar. Bununla da 204 ölkə arasında 30-cu yerdə qərar tutan ölkəmiz medalların ümumi sayına görə 25-ci oldu. İki qızıl, iki gümüş və beş bürünc əldə edən idmançılarımız bu göstərici ilə Avropa ölkələri arasında 15-ci, MDB-də isə 5-ci yeri tutdular. Londonda Toğrul Əsgərov və Şərif Şərifov qızıl, Rövşən Bayramov və Mariya Stadnik gümüş medalların sahibi oldular. Digər üç güləşçimiz Emin Əhmədov, Yuliya Ratkeviç və Xetaq Qazyumov isə mübarizələrini bürünc medalla başa vurdular. Digər iki bürünc medalları isə boksçularımız Teymur Məmmədovla Məhəmmədrəsul Məcidov qazandılar.

2016-cı ildə Braziliyanın Rio-de-Janeyro şəhərində təşkil edilən XXXI Yay Olimpiya Oyunlarına Azərbaycan 56 idmançı ilə qatıldı. İlk dəfə rekord sayda - 18 medal (1 qızıl, 7 gümüş, 10 bürünc) qazanıldı. Dünyanın 207 ölkəsindən 11 mindən çox idmançının iştirak etdiyi turnirdə Azərbaycan medal sayına görə 87 mükafatçı dövlət arasında 15-ci yeri tutaraq islam, türk və Qafqaz ölkələri arasında lider oldu.

Pəhləvanlarımız bu dəfə də 9 medal qazandılar. Güləş yığmamızın aktivinə 3 gümüş medalı pəhləvanlar (Mariya Stadnik, Toğrul Əsgərov və Xetaq Qazyumov) əlavə etdilər. Digər 6 güləşçimiz - Cəbrayıl Həsənov, Rəsul Çunayev, Nataliya Sinişin, Sabah Şəriəti, Şərif Şərifov və Hacı Əliyev isə çıxışlarını bürünc medalla başa vurdular. Cüdoçulardan Rüstəm Orucov və Elmar Qasımov 4 illiyin zirvə yarışını gümüş medalla başa vurdular.

Tarixində ilk dəfə Olimpiya oyunlarında mükafat qazanan taekvondo üzrə Azərbaycan millisi "Rio-2016"da ən yaxşılardan olub. Braziliyaya 4 idmançı ilə yollanan yığmamız okeanın o tayında 3 medal əldə edib. Radik İsayev Azərbaycanın yeganə qızıl medalının sahibi olub. Milad Beiqi Harçeqani və Patimat Abakarova bürünc medal qazandıqlarına sevindilər. Boksçulardan Sotomayor Lorenzo gümüş, Kamran Şahsuvarlı bürünc medala sahib oldular. Ölkəmizin hesabına daha bir gümüş medalı avarçəkmə yarışlarında Valentin Demyanenko, bürüncü isə İnna Osipenko-Rodomskaya əlavə etdi.

Pandemiya səbəbindən bir il təxirə salınan "Tokio-2020" Olimpiadasına 44 idmançı ilə qatılan Azərbaycan komandası turniri 3 gümüş və 4 bürünc medalla başa vurub. Gümüş medalların 2-si karate, 1-i güləş, bürünc mükafatlardan isə 2-si güləş, 1-i cüdo, 1-i boks yarışlarında qazanılıb. Karateçilərimizdən Rafael Ağayev (kumite, 75 kq) və İrina Zaretska (kumite, +61 kq) təkcə finalda uduzaraq gümüş medallara sahib olublar. Digər gümüş medalın sahibi sərbəst güləşçi Hacı Əliyevdir. Yunan-Roma güləşçilərimizdən Rafiq Hüseynov (77 kq) və qadın güləşçimiz Mariya Stadnik (50 kq) Olimpiadanı bürünc medallarla başa vurdular. Ölkəmizin aktivinə digər bürünc medalları cüdoçu İrina Kindzerska (+78 kq) və boksçu Alfonso Domingez (81 kq) yazdırdılar.

Beləliklə, Azərbaycan idmançıları qazandıqları nəticələri təkrar etmək, tutduqları mövqeyi qoruyub saxlamaq və yaxşılaşdırmaq uğrunda gərgin mübarizə aparırlar. Müxtəlif irimiqyaslı yarışlarda idmançılarımızın qələbələri və yeni gənc idmançılar nəslinin aşkar olunan potensial imkanları ölkəmizin qarşıdakı nüfuzlu yarışlarda da yüksək nəticələr göstərərək, əvvəlki mövqelərini daha da yaxşılaşdıracağına inam yaradır.

Bu gün Azərbaycan idmanı tarixinin çox şərəfli və tərəqqi dövrünü yaşamaqdadır. Bütün bu nailiyyətlər Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən bu sahəyə göstərilən xüsusi diqqət və qayğının bəhrəsidir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Bakıda Mərakeşin milli bayramı qeyd olunub

**Mərakeşin milli bayramı - Taxt-Tac Günü münasibətilə iyulun 30-da Bakıda rəsmi qəbul təşkil edilib.**



AZƏRTAC xəbər verir ki, tədbirdə əvvəlcə Azərbaycanın və Mərakeşin Dövlət himnləri səsləndirilib. Ölkəsinin son illərdə qazandığı uğurlar barədə danışan Mərakeşin Azərbaycandakı səfiri Məhəmməd Adil Embarş qeyd edib: "2030-cu ilədək istixana qazı emissiyalarını 45,5 faiz azaltmağı hədəfləyən Mərakeş yüksək nəticələr göstərən ölkələr sırasında yer alır. Buna görə də Mərakeş Bakıda uğurlu COP29-u səbirsizliklə gözləyir və Azərbaycana uğurlar arzulayır".

Ölkələrimizin müxtəlif beynəlxalq forumlarda bir-birini ardıcıl olaraq dəstəklədiklərini, həmrəyliklərini, sülh və sabitliyə ortaq baxışlarını nümayiş etdirdiklərini vurğulayan diplomat Sahara məsələsində Mərakeşin ərazi bütövlüyünə göstərdiyi dəstəyə görə Azərbaycan tərəfinə minnətdarlığını bildirib.

Sonra çıxış edən Azərbaycanın mədəniyyət naziri Adil Kərimli Azərbaycanın Mərakeş ilə münasibətlərin möhkəmlənməsinə xüsusi əhəmiyyət verdiyini, siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığın daha da inkişaf etdirilməsi arzusunda olduğunu söyləyib.

Azərbaycan ilə Mərakeş arasında dostluq və əməkdaşlıq münasibətlərinin 1991-ci ildə Mərakeşin ölkəmizin müstəqilliyini tanıması ilə başladığını və 1992-ci ildə diplomatik əlaqələr qurulduğunu xatırladan A.Kərimli diqqətə çatdırıb ki, Ulu Öndər Heydər Əliyevin Mərakeşə səfəri zamanı Kral Əlahəzrət II Həsən ilə keçirdiyi görüş iki ölkə arasında möhkəm qardaşlıq bağlarının əsasını qoyub.

Nazir qeyd edib ki, bu dostluq əlaqələri bu gün iki ölkənin liderləri tərəfindən uğurla davam etdirilərək yeni mərhələyə yüksəlib.

"Azərbaycan və Mərakeş beynəlxalq hüququn təməli kimi hər zaman bir-birinin ərazi bütövlüyünü və suverenliyini dəstəkləyib. Bu gün ölkələrimiz arasında əməkdaşlıq həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində uğurla davam etdirilir", - deyə A.Kərimli əlavə edib.

Tədbir ziyafətlə davam edib.

# Mərakeş Azərbaycanın etibarlı tərəfdaşıdır

**Hər dəfə ərəb şərqindən söhbət düşəndə gözlərimiz önündə canlanan ilk ölkələrdən biri füsunkar gözəlliklərə malik Mərakeş olur. Qədim zəngin mədəniyyətə və tarixə malik olan bu diyar özünün iqtisadi, tranzit ticarəti, geostrateji əhəmiyyətinə görə mühüm regionda yerləşir. Bu ölkə tarix və memarlıq, etnoqrafik turizm həvəskarları və rəngarəng suvenir kolleksiyaçıları üçün böyük maraq doğurur.**



Hər il özünün Milli bayramı olan - Taxt-Tac Gününü qeyd edən Mərakeş xalqı yeni-yeni uğurlara imza atır. Son illər bu ölkə qitənin ən inkişaf etmiş dövlətlərindən birinə çevrilib. Qlobal iqtisadiyyatın XXI əsrdə inkişaf etməsi üçün bəşəriyyətə firavan Afrika lazımdır. Qitə ölkələri arasında Mərakeş yaxşı inkişaf etmiş sənayesi olan bir kənd təsərrüfatı ölkəsidir. Ölkənin əsas mineral ehtiyatları fosforitlərdir. Onun istehsalına görə bu ölkə dünyada 3-cü və ixracatına görə 1-ci yerdədir. Xarici ticarət inkişafına görə yaxşı nəticələr göstərir. Ötən il ixracat məhsullarının həcmi 17 milyard dollara yaxın olub. Əsas ixrac olunan məhsullar sırasında toxuculuq malları, balıq məhsulları və fosfat süxurları var.



İdxala gəlincə, Mərakeş əsasən xaricdən neft, telekommunikasiya avadanlıqları, buğda, təbii qaz və elektrik enerjisi alır. Əsas tərəfdaşları Çin, İtaliya, İspaniya, Almaniya, ABŞ və Səudiyyə Ərəbistanıdır.

Ölkənin beynəlxalq valyuta ehtiyatları ötən ilin ortalarında 35 milyard dollardan çox olmuşdur. Ümumdaxili məhsulun böyük hissəsi xidmət sektorunun payına düşür ki, bu da büdcəyə təxminən 52 faiz gəlir gətirir. Gəlirlərin təxminən 33 faizi sənayenin, 15 faizi isə kənd təsərrüfatının payına düşür.

Yerli əhalinin təxminən 44 faizi kənd təsərrüfatı sahələrində çalışır. Burada hər il dənli, paxlalı bitkilər, şəkər çuğunduru becərilir. Ümumilikdə ildə 6 milyon tonadək kartof, pomidor və buğda yetişdirilir ki, bu da əhalinin məişət ehtiyaclarını ödəyir.

Müasir Mərakeş sənayesinin əsas sahəsi dağ-mədən strukturudur. Mərakeş bütün ərəb ölkələri arasında dördüncü ən yaxşı iqtisadiyyata malikdir. Mərakeşdə ölkəyə investisiya cəlb etmək üçün yaxşı şərait yaradılıb. Krallıq dünyanın bir çox aparıcı şirkətlərini regionda biznes açmağa cəlb edən iqtisadi siyasət yürüdür. Onun coğrafi mövqeyi Qərb və Afrika, eləcə də Yaxın Şərq və ABŞ arasında körpü rolunu oynayır.

Eyni zamanda Mərakeş dünyanın aparıcı turizm diyarlarından biridir. Ölkədə iqtisadi fəaliyyətin 7 faizini turizm təşkil edir. Bu sahədə yarım milyondan çox insan çalışır. Təsadüfi deyil ki, Mərakeş Afrikanın ən inkişaf etmiş turizm bazalarından biridir.

Azərbaycan və Mərakeş xalqları arasında əlaqələr orta əsrlərə gedib çıxır. Lakin bu iki xalq arasında keyfiyyətcə yeni mərhələ Azərbaycanın dövlət müstəqilliyi qazanmasından sonra baş verdi. Mərakeş Krallığı Azərbaycanın dövlət müstəqilliyini 1991-ci il dekabrın 30-da tanıyıb, ölkələrimiz arasında diplomatik əlaqələr isə 1992-ci il avqustun 25-də qurulub və iki ölkə arasında münasibətlərin əsası qoyulub. Azərbaycan tarixi dostluq əlaqələri olan Mərakeşlə münasibətlərin inkişaf etdirilməsinə böyük önəm verir.

Hər iki ölkəni bir-birilə yaxınlaşdıran bir sıra amillər var. Belə ki, Azərbaycan tarixən Şərq ilə Qərb arasında körpü rolu oynayıb. Mərakeş də iki qitənin qovşağında, okean və dəniz sahilində geostrateji bir məkanda yerləşməklə mühüm əhəmiyyət kəsb edir.

İlk dəfə 2006-cı ilin sentyabrında Mərakeşdə Azərbaycan səfirliyi açılıb. Bunun ardınca 2008-ci ilin noyabrında Bakıda Mərakeş səfirliyi fəaliyyətə başlayıb. İki ölkə arasında siyasi, iqtisadi, mədəni və sosial münasibətləri tənzimləyən 100-dən çox sənəd imzalanıb. Xüsusi vurğulamaq lazımdır ki, ikitərəfli əlaqələrin hazırkı səviyyəsi Azərbaycan Prezidenti İlham Əliyev və Mərakeş Kralı VI Məhəmməd arasında mövcud olan dostluq və qardaşlıq münasibətlərinin təzahürüdür.

Azərbaycan və Mərakeş öz regionlarının mühüm aktorlarıdır. Rəsmi Rabatın fikrincə, Mərakeş Azərbaycanı regionda mühüm tərəfdaş kimi görür. BMT, İƏT və Qoşulmama Hərəkatı kimi çoxtərəfli platformalarda həyata keçirilən təmaslar və bu platformalarda dövlətlərin bir-birinin mövqelərini dəstəkləməsi ikitərəfli münasibətlərdə mühüm rol oynayır.

İki ölkə arasında mühüm məsələlərdə qarşılıqlı dəstəyin mövcud olmasını hər iki ölkə rəhbərliyi razılıqla qarşılayır. Azərbaycan və Mərakeş ərazi bütövlüyü və suverenlik məsələlərində bir-birini həmişə dəstəkləmişdir.

Həmçinin iki ölkə parlamentləri arasında münasibətlər getdikcə inkişaf edir. Milli Məclisin sədri Sahibə Qafarova 2023-cü il dekabrın 15-də Mərakeş Krallığına ilk rəsmi səfəri çərçivəsində Mərakeş Krallığının Baş naziri Aziz Axanuş ilə görüşüb. Hər iki ölkənin parlamentində qarşı tərəflə dostluq qrupları fəaliyyət göstərir. 2023-cü il oktyabrın 2-də Mərakeş parlamentinin Mərakeş-Azərbaycan dostluq qrupunun rəhbəri Bakıda səfərdə olub. O, Milli Məclisdə Azərbaycanlı həmkarları ilə səmərəli müzakirələr aparıb.

İki ölkə arasında bir çox istiqamətlərdə, o cümlədən ailə və sosial məsələlər sahəsində əlaqələrin möhkəmləndirilməsi və şaxələndirilməsi üçün səylər artırılır. Ötən il Qoşulmama Hərəkatına üzv dövlətlərin sosial sahəyə məsul nazirlərinin Bakıda keçirilən konfransında Azərbaycanın təşəbbüsü ilə hərəkatın "Qadın qolu"nun yaradılması barədə bəyannamə qəbul olundu. Bu il iyunun 25-də isə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri B.Muradova Mərakeş Krallığının paytaxtı Rabat şəhərində keçirilən "Qayğı iqtisadiyyatı və sosial müdafiə: Qadınların səlahiyyətləndirilməsi, iş imkanları və rifahının təmin edilməsinin əsasları" mövzusunda I Beynəlxalq Konfransda iştirak etdi.

Son illər iki ölkə arasında iqtisadi əlaqələr dinamik inkişaf etməkdədir. Keçən il noyabrın 14-də Rabatda keçirilən I Azərbaycan-Mərakeş Biznes Forumu çərçivəsində Azərbaycanın İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), eləcə də İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO) ilə Mərakeşin müvafiq qurumları arasında anlaşma memorandumları imzalandı. Hər iki tərəfin qənaətinə görə, biznes-forum qarşılıqlı faydalı imkanların araşdırılmasında mühüm mərhələ olacaqdır.

İki ölkə hökumətləri arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında" konvensiya fəaliyyət göstərir. Bu razılaşmaya görə iqtisadi əməkdaşlığın daha da gücləndirilməsi nəzərdə tutulur. Tərəflər belə bir yekdil fikrə gəliblər ki, qarşılıqlı iqtisadi əməkdaşlığın inkişafı üçün imkanlar genişdir.

Siyasi və iqtisadi münasibətlərin normal məcrada inkişafı hər iki ölkənin mədəni cəhətdən yaxınlaşmasına müsbət təsir göstərir. Son illər Azərbaycanda Mərakeş mədəniyyət günlərinin keçirilməsi müntəzəm hal almışdır. Belə ki, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin təşkilatçılığı ilə bu il iyunun 6-7-də Mərakeş Krallığının Rabat şəhərində "Şuşa günləri" keçirilmişdir. İslam dünyasının 2024-cü il üçün mədəniyyət paytaxtı seçilmiş tarixi Şuşa şəhərində gerçəkləşdirilən layilələr, həyata keçirilən mədəni tədbir proqramları haqqında məlumatlar və sərgilər Rabat sakinlərinin böyük marağına səbəb olmuşdur.

Mərakeş ictimaiyyətinin dəstəyi ilə hazırda bu ölkədə Mərakeş-Azərbaycan Dostluq Cəmiyyəti fəaliyyət göstərir. Bu qurum çərçivəsində vaxtaşırı olaraq mədəni-kütləvi tədbirlər həyata keçirilir. İki ölkənin mədəniyyət nazirlikləri arasında da əlaqələr müntəzəm xarakter alıb.

Azərbaycan və Mərakeş arasında məsafə böyük olmasına baxmayaraq, onların regionda yeritdiyi siyasət və beynəlxalq problemlərə münasibətləri bir-birinə çox bənzəyir. Hər iki ölkə özünün tolerantlığı ilə dünya ölkələrinə nümunə ola bilər. Hər iki qardaş ölkənin sürətli inkişafı üçün daxili potensialı kifayət qədərdir. Yetər ki, Şimal-Qərbi Afrikada və Cənubi Qafqazda sülh olsun, dinc əməkdaşlıq genişlənsin.

*Atamoğlan MƏMMƏDLİ,*
*BDU-nun dosenti*

**1 sentyabr Milli Məclisə seçkilər günüdür**

# Naxçıvanda Milli Məclisə seçkilərdə polisin xidməti fəaliyyətinə həsr olunan seminar-müşavirə keçirilib

**Naxçıvanda bu il sentyabrın 1-nə təyin edilmiş Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasının Daxili İşlər Nazirliyi (DİN) ilə birgə layihəsi çərçivəsində seminar-müşavirə keçirilib.**





AZƏRTAC xəbər verir ki, muxtar respublikanın Daxili İşlər Nazirliyində təşkil olunan seminar-müşavirədə əvvəlcə Ümummilli Liderimiz Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad olunub. Tədbirdə Mərkəzi Seçki Komissiyasının və Daxili İşlər Nazirliyinin nümayəndələri, muxtar respublika üzrə 6 seçki dairəsinin dairə seçki komissiyalarının sədrləri, polis idarələri və şöbələrinin əməkdaşları iştirak ediblər.

Mərkəzi Seçki Komissiyasının üzvü İlham Məmmədov Fransanın paytaxtı Parisdə keçirilən Yay Olimpiya Oyunlarında Azərbaycan cüdoçusu Hidayət Heydərovun fransalı Con Benjamin Qabanı məğlub edərək qızıl medal qazanması münasibətilə təbriklərini çatdırıb, seminar-müşavirənin əhəmiyyətindən bəhs edib.

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin İctimai təhlükəsizlik idarəsinin rəisi Cavid Cəfərov Milli Məclisə seçkilərin hazırlanıb keçirilməsində, seçkiqabağı təşviqat dövründə, habelə səsvermə günü və ondan sonrakı proseslərdə polis əməkdaşlarının qanunvericiliklə müəyyənləşdirilmiş rol və vəzifələrindən danışıb.

Sonra Mərkəzi Seçki Komissiyasının üzvü İlkin Şahbazov seçki subyektləri, onların hüquq və vəzifələri, seçki subyektlərinin fəaliyyətinə qanunsuz müdaxilənin yolverilməzliyi ilə bağlı çıxış edib.

Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsində idarə rəisi Sənan Əliyev seçki kampaniyası dövründə və seçkilərin keçirildiyi gün ictimai qaydanın təmin edilməsi ilə bağlı polis əməkdaşlarının hüquq və vəzifələri, seçkidən sonrakı dövrdə seçki bülletenlərin və digər seçki sənədlərinin dairə və Mərkəzi Seçki Komissiyasına gətirilməsi zamanı təhlükəsizlik tədbirlərinin görülməsi barədə məlumat verib.

Sonda seminar-müşavirə iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

# Milli Məclisə seçkilərlə bağlı "ASAN xidmət" mərkəzlərində innovativ layihə istifadəyə verilib

**Sentyabrın 1-də keçiriləcək Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə vətəndaşların səsvermə hüquqlarının daha səmərəli təmin olunması üçün "ASAN xidmət" mərkəzlərində mütərəqqi və səmərəli bir vasitənin tətbiqi davam etdirilir.**

Mərkəzi Seçki Komissiyası (MSK) Katibliyinin Media və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildiriblər ki, innovativ həll MSK-nın və "ASAN xidmət"in birgə layihəsi çərçivəsində həyata keçirilir.

Vətəndaşlar mərkəzlərdə olan "ASAN növbə" terminallarındakı "Seçici statusunu yoxla" adlı funksional bölmədə şəxsiyyət vəsiqələrini oxudaraq adlarını seçici siyahılarında yoxlaya, habelə aid olduqları seçki dairəsi və məntəqəsini müəyyənləşdirə bilərlər.

Məlumatlar sistemdə əks olunmadığı təqdirdə açılan yeni ekranda əlaqə məlumatları daxil edilməklə yerindəcə Mərkəzi Seçki Komissiyasına müraciət etmək imkanı da təmin olunur.

Gün ərzində "ASAN xidmət"ə 40 minə yaxın vətəndaş müraciəti daxil olur. Vətəndaşlarımız növbə götürərkən eyni vaxtda bu sistemdən istifadə etməklə harada səs verməli olduqlarını operativ şəkildə dəqiqləşdirə bilərlər.

# Qərbi Azərbaycan İcması Ermənistanın XİN başçısının normallaşma prosesini təhrif edən açıqlamalarına dair bəyanat yayıb

**Qərbi Azərbaycan İcması Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın yenidən Azərbaycan-Ermənistan normallaşma prosesini təhrif edən açıqlamalarına dair bəyanat yayıb.**

AZƏRTAC bəyanatı təqdim edir: "Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan yenidən Azərbaycan-Ermənistan normallaşma prosesini təhrif edən açıqlamalar verib. Əvvəla 30 il ərzində həmin Almatı Bəyannaməsinə açıq-aşkar hörmətsizlik nümayiş etdirən, başqa bir ölkənin ərazi bütövlüyünü pozan, sərhədlərin delimitasiyasına və demarkasiyasına imkan verməyən məhz Ermənistan olub.

Sərhəd insidentləri və silahlanma üzərində nəzarət mexanizminin yaradılması təklifinə Ararat Mirzoyanın Azərbaycanın reaksiya verməməsi barədə dedikləri beynəlxalq aləmdə özünü konstruktiv tərəf kimi göstərməyə hesablanmış tamamilə qeyri-səmimi və mənasız cəhddir. 30 il ərzində bütün dünyanın gözü qarşısında Avropada adi silahlara nəzarət sahəsində çoxtərəfli mexanizmləri tapdalayaraq Azərbaycan ərazilərini işğal etmiş, orada qoşun və silah yerləşdirmiş Ermənistanın hər hansı başqa silahlara nəzarət mexanizminə necə "riayət" edəcəyi heç kimdə şübhə doğurmur. Bundan başqa, Ermənistanın konstitusiyasında və qanunvericiliyində Azərbaycana ərazi iddialarının qaldığı müddətdə bu ölkənin sülh prosesinə sadiqliyi sual altındadır.

Qərbi Azərbaycan İcması hesab edir ki, Ermənistan Qarabağ ermənilərinin guya zorla köçürülməsi barədə böhtançı açıqlamalar vermək, qondarma qurumun "təsisatları"nın anti-Azərbaycan fəaliyyətinə göz yummaq, militarizasiya siyasəti yürütmək, sərhəddə gərginlik yaratmaq əvəzinə, Azərbaycanla sülh istəyində səmimi olmalı və bu xüsusda, Qərbi azərbaycanlıların öz dədə-baba yurdlarına qayıdışına şərait yaratmalıdır".




# Hazırlıq tədbirləri ətrafında fikir mübadiləsi aparılıb



Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycan Respublikasındakı missiyasının rəhbəri Troy Duli ekologiya və təbii sərvətlər naziri Muxtar Babayevlə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanın bu il evsahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq tədbirləri ətrafında fikir mübadiləsi aparılıb.

❖ ❖ ❖



İtaliya Respublikasının Azərbaycan Respublikasındakı səfiri Luka Di Canfrançesko ilə ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev arasında görüş keçirilib.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Azərbaycanın bu il evsahibliyi edəcəyi mötəbər tədbir olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq prosesi üzrə fikir mübadiləsi aparılıb.

# Videokonfrans formatında görüş



**Quqle şirkəti ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) üzrə prioritetlər və dayanıqlı inkişaf həllərinin perspektivləri barədə müzakirələr aparılıb.**

Bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov özünün "Facebook" sosial şəbəkəsindəki hesabında yazıb.

Müzakirələr iqtisadiyyat nazirinin Quqle şirkətinin Qafqaz və Mərkəzi Asiya üçün Dövlət əlaqələri və ictimai siyasət üzrə rəhbəri Olqa Skoroxodova və şirkətin Qafqaz, Mərkəzi Asiya, Cənubi Afrika və İsrail üzrə rəhbəri Marina Zuniklə videokonfrans formatında keçirdiyi görüşdə aparılıb.

Quqle şirkətinin nümayəndələri ilə müzakirələrimiz mövcud əməkdaşlıq və potensial istiqamətlərdə əlaqələrin genişləndirilməsi imkanlarını əhatə etdi", - nazir bildirib.

M.Cabbarovun sözlərinə görə, müzakirələrdə həmçinin innovativ təcrübələrin tətbiqi, bulud texnologiyaları, süni intellekt əsaslı texnologiyalar üzrə birgə fəaliyyətin təşkili məsələləri əhatə olunub.

Görüşdə həmçinin şirkətin məhsul və xidmətləri üzrə potensial əməkdaşlıq istiqamətləri nəzərdən keçirilib.

# COP29 sədrliyi "Azərbaycanda Dayanıqlı Yaşıl Tikinti" mövzusunda dəyirmi masa keçirib

**Ölkəmizin cari ildə evsahibliyi edəcəyi COP29 konfransına hazırlıq çərçivəsində özəl sektorun dayanıqlılıq səriştələrinin artırılması istiqamətində silsilə tədbirlərin davamı olaraq COP29-un müəyyən edilmiş prezidenti Muxtar Babayev və İqlim üzrə yüksəksəviyyəli çempionu Nigar Arpadarai tikinti sahəsində dövlət və özəl sektorun nümayəndələri ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, iyulun 30-da "Azərbaycanda Dayanıqlı Yaşıl Tikinti" mövzusunda baş tutan dəyirmi masada yerli və xarici tikinti şirkətləri, eləcə də aidiyyəti dövlət qurumları bir araya gəliblər.

Görüşün məqsədi tikinti sahəsinin ətraf mühitə təsirləri nəzərə alınaraq yerli tikinti şirkətlərini, tikinti-istehsal müəssisələrini, xarici şirkət və ekspertləri, eyni zamanda, dövlət orqanlarının nümayəndələrini bir araya gətirməklə, dayanıqlı və sıfırkarbonlu tikintiyə keçid istiqamətində əməkdaşlıq platformasının yaradılması olub. Tədbir zamanı dekarbonizasiya yolunda beynəlxalq imkanlar, aşağı emissiyalı tikinti materiallarına keçidin ekoloji faydaları və bu yolda potensial çətinliklər, dayanıqlı inkişaf və iqlim dəyişmələri ilə mübarizə istiqamətində görülmüş və planlaşdırılan işlər müzakirə olunub.

Dəyirmi masada COP29-un müəyyən edilmiş prezidenti Muxtar Babayev, Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev, COP29-un İqlim üzrə yüksəksəviyyəli çempionu Nigar Arpadarai, eləcə də BMT, Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyasının nümayəndələri, yerli və qlobal miqyasda nüfuzlu tikinti şirkətlərinin təmsilçiləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Nigar Arpadarai özəl sektorun milli iqtisadiyyatın sütunu olduğunu qeyd edərək, tədbirə qatılan biznes liderlərinin tikinti sektorunda dəyişikliyi təmin etməkdə mühüm rola malik olduqlarını vurğulayıb. N. Arpadarai COP29-un İqlim üzrə yüksəksəviyyəli çempionu olaraq hədəfinin dekarbonizasiya yolunda olan yerli bizneslərə dəstək olmaq və özəl müəssisələrin səslərinin eşidilməsini təmin etmək olduğunu bildirib.

Toplantıda çıxış edən COP29-un müəyyən edilmiş prezidenti Muxtar Babayev tikinti sektorunun nümayəndələrinin iqlim dəyişmələrinin təsirlərinin azaldılması istiqamətində dövlətimiz tərəfindən ölkədə həyata keçirilən fəaliyyətlərə dəstək olaraq bu tədbirə qatılmalarını təqdir edib, sahibkarları Azərbaycanda dayanıqlı "yaşıl tikinti" mərhələsinin təşviq olunmasına töhfə verməyə çağırıb.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikasının "yaşıl enerji" zonası elan olunmasına diqqət çəkib, həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmaların tətbiq edildiyini, ekosistemin bərpa olunduğunu vurğulayıb: "Qarabağa Böyük qayıdışla bağlı aparılan bərpa-quruculuq işləri regionun böyük potensialının olduğunu sübut edir. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı yenidənqurma prosesində ətraf mühitin qorunması əsas prirotetlərdəndir".

Tədbir iştirakçıları ölkənin karbon emissiyalarının 1,5°C səviyyəsində məhdudlaşdırılma səylərini dəstəklədiklərini bildirib, karbon emissiyalarının azaldılması ilə yanaşı, enerji səmərəliliyinin təkmilləşdirilməsində tikinti sektorunun rolunu anladıqlarını qeyd edərək, bu istiqamətdə öz davamlı töhfələrini verməyə hazır olduqlarını vurğulayıblar.

"Dəyirmi masa" çərçivəsində "PMD Qrup", Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti, "Paşa Real Estate Qrup", "6-cı mərtəbə", "Aral Qrup", "Hünər Qrup", "SR Construction", "Kristal Abşeron", "Avant Qrup", "Baku City Residence" nümayəndələri tərəfindən qlobal dekarbonizasiya hədəflərinə nail olunmasını nəzərdə tutan "Azərbaycanda Dayanıqlı Yaşıl Tikinti" üzrə Bəyannamə imzalanıb. İmzalanan sənəd dekarbonizasiya hədəflərinin təşviqi, emissiyaların ölçülməsi və hesabatlılıq, eləcə də şəffaflıq və əməkdaşlığın təmin edilməsi, bilik və təcrübə mübadiləsi, iqlim fəaliyyətlərinin biznes modellərinə inteqrasiyası kimi müxtəlif öhdəliklər ətrafında kollektiv səylərə yönəlib.

# "Azərbaycanın Dayanıqlı Yaşıl Tikinti Bəyannaməsi" imzalanıb

**"Azərbaycanın Dayanıqlı Yaşıl Tikinti Bəyannaməsi" imzalanıb. İmzalanma COP29-a hazırlıq çərçivəsində keçirilən "Azərbaycanda Yaşıl Tikinti" tədbirində baş tutub.**

Bəyannaməni COP29 Təşkilat Komitəsinin bir neçə üzvü və Azərbaycanda fəaliyyət göstərən bir neçə tikinti şirkətinin rəhbərləri imzalayıblar.

Bəyannamənin məqsədi tikinti şirkətlərinin emissiyaların azaldılması məsuliyyətini dərk etdiyini göstərməsidir. Bəyannamə bu istiqamətdə atılan addımın ilk mərhələsidir. Daha sonra isə məsuliyyəti dərk etmək mərhələsindən əməli fəaliyyətə keçid olacaq.

Qeyd edək ki, "Azərbaycanın Dayanıqlı Yaşıl Tikinti" rəhbərlərinin dəyirmi masa müzakirəsi keçirilir. "Azərbaycanın Dayanıqlı Yaşıl Tikinti" Rəhbərlərinin Dəyirmi Masa Müzakirəsi baş icraçı direktorlar, nazirlər, BƏƏ-nin tikinti şirkətləri, COP29-un prezidenti və BMT-nin COP29 üzrə yüksək səviyyəli çempionu daxil olmaqla, Azərbaycanın aparıcı sənaye liderlərinin xüsusi yüksəksəviyyəli görüşüdür.

Bu unikal tədbir çağırışları müzakirə etmək, imkanları araşdırmaq və əlverişli siyasətləri müəyyən etmək məqsədilə platforma təqdim etməklə Azərbaycanın tikinti sektorunda əməkdaşlıq və dayanıqlı inkişafa təkan verəcək.

Dəyirmi masa qlobal iqlim hədəflərinə nail olmaq istiqamətində "yaşıl tikinti"nin mühüm rolunu vurğulayır və COP29-a gedən yolda əhəmiyyətli mərhələyə işarə etməklə Azərbaycan və onun hüdudlarından kənarda ciddi nəticələri olan məqsədyönlü biznes əməliyyatları və əməkdaşlıq üçün zəmin yaradır.

# Xarici mətbuat ölkəmizin COP29-a evsahibliyi etmək üçün hazırlığından bəhs edib



Meksikanın tanınmış "Milenio" qəzetində ölkənin nüfuzlu ali təhsil ocaqlarından olan Meksika Milli Muxtar Universitetinin professoru Talya İşcanın müəllifliyi ilə ölkəmizin evsahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) dair məqalə dərc edilib.

Azərbaycanın Meksikadakı səfirliyindən "Report"a bildirilib ki, müəllif məqaləsində COP29-un bu ilin noyabrında Bakıda keçiriləcəyini xatırladaraq, bu xüsusda cari ilin iqlim dəyişikliyi ilə qlobal mübarizədə mühüm mərhələ kimi qeyd olunduğunu diqqətə çatdırıb. Avropa və Asiyanın kəsişməsində yerləşən ölkəmizin davamlılığa və azkarbonlu iqtisadiyyata keçidə güclü sadiqlik nümayiş etdirdiyini vurğulayıb.

İnklüzivliyi və multikulturalizmi ilə tanınan, Qoşulmama Hərəkatına sədrlik edən və beynəlxalq arenada bir çox məsələlərdə fəallıq göstərən Azərbaycanın bugünkü dəyişkən və təlatümlü dünyada iqlim dəyişikliyi kimi eksiztensial çağırışın öhdəsindən gəlmək istiqamətində irəli addım atmasının və beynəlxalq ictimaiyyətin böyük dəstəyini əldə etməsinin sevindirici hal olduğunu bildirib.

Məqalədə Azərbaycanın neft sənayesində birinciliyindən söz açan müəllif bu kimi ölkələrin iqlim dəyişikliyi probleminə ciddi yanaşmasının ümid yaratdığını deyib. O, ölkəmizin davamlılıq sahəsində mühüm irəliləyişlər əldə etdiyini, bərpaolunan enerjiyə, xüsusən də günəş və külək enerjisinə sərmayə qoyduğunu və "fossil" yanacaqlardan asılılığını azaltmaq üçün müvafiq qərarlar qəbul etdiyini, strateji yerləşməsi və mühüm təbii ehtiyatları ilə təmiz enerji sahəsində regional lider kimi yüksəldiyini diqqətə çatdırıb.

Müəllif Xəzər dənizinin külək enerjisi potensialının təxminən 157 GVt həcmində olduğunu, ölkəmizin bərpaolunan enerji mənbələri və texniki imkanları baxımından böyük potensiala malik ölkələrdən biri kimi seçildiyini, bu yaxınlarda günəş (Qaradağ, Şəfəq) və külək (Xızı-Abşeron) stansiyalarının tikildiyini, eləcə də əlavə külək və su-elektrik stansiyaları layihələrinin reallaşdırıldığını xatırladıb.

Bu təşəbbüslərin 2030-cu ilə qədər ölkənin ümumi enerji balansında bərpaolunan enerji üzrə qoyuluş gücü payının ən azı 30 faizə çatdırılması strategiyasının bir hissəsi kimi ölkəmizin bərpaolunan elektrik enerjisi istehsalı potensialını genişləndirmək öhdəliyini əks etdirdiyini vurğulayıb.

Məqaləsində iqlim dəyişikliyi mövzusunda Meksikanın mövqeyinə toxunan müəllif ölkənin yeni seçilmiş prezidenti, ətraf mühit mövzularında fəal Klaudiya Şeynbaumun rəhbərliyi altında ölkənin iqlim dəyişikliyinə dair güclü öhdəliyə mühüm əhəmiyyət verdiyini diqqətə çatdırıb. Müəllif beynəlxalq arenada mühüm aktor və G20-nin üzvü kimi Meksikanın Azərbaycanla yaxşı ikitərəfli münasibətlərini nəzərə alaraq bu mühüm məsələyə sadiqliyini və fəal iştirakını nümayiş etdirə biləcəyini, hər iki ölkənin iqlim dəyişikliyinə uyğunlaşma və bərpaolunan enerjiyə keçiddə oxşar problemlərlə üzləşdiyini bildirib.

Müəllif habelə məqaləsində, inkişaf etmiş ölkələrin iqlim dəyişikliyi təsirlərinin azaldılması və uyğunlaşma strategiyalarını həyata keçirə bilmələri üçün inkişaf etməkdə olan ölkələrə adekvat maliyyələşdirmə yardımı etməsinin vacibliyindən söz açıb. Meksikanın iqlim dəyişikliyinin nəticələrindən əhəmiyyətli dərəcədə əziyyət çəkdiyini xatırladaraq Meksika və digər inkişaf etməkdə olan ölkələrin COP29-da müzakirə olunacaq iqlim maliyyələşdirməsindən faydalanabilmə imkanından danışıb.

Bu maliyyələşmənin "yaşıl infrastruktur" layihələri, bərpaolunan enerji və iqlimə davamlılıq proqramları üçün çox vacib olduğunu, COP29-un gündəliyinə iqlim maliyyələşdirilməsi mexanizmləri, Paris Sazişinin icrası və istixana qazları emissiyalarının azaldılması naminə beynəlxalq əməkdaşlıq üzrə müzakirələrin daxil olacağını, habelə iqlim ədaləti, həssas icmaların dayanıqlılığı və iqlim dəyişikliyi ilə mübarizə üçün texnoloji yeniliklər kimi mövzulara toxunulacağının gözlənildiyini deyib.

Sonda Meksika Azərbaycan münasibətlərinə toxunan müəllif iki ölkə arasında münasibətlərin möhkəmləndiyini, təhsil, mədəniyyət və xüsusilə, ətraf mühitin mühafizəsi kimi sahələrdə ortaq maraqları bölüşdüyünü bildirib. Davamlılıq layihələri üzrə əməkdaşlığın bilik və "yaşıl texnologiya"ların mübadiləsi baxımından hər iki ölkəyə fayda verə biləcəyini qeyd edib.

Ölkəmizdə keçiriləcək COP29-un ölkələr üçün öz iqlim mövzusuna sadiqliyini gücləndirmək və innovativ həllər üzərində əməkdaşlıq etmək üçün əvəzolunmaz fürsət olduğunu bildirən müəllif K.Şeynbaumun rəhbərliyi ilə Meksikanın ətraf mühitə sadiqliyini bir daha təsdiqləmək və yeni beynəlxalq əməkdaşlıq imkanlarını araşdırmaq üçün bu konfransın platforma olacacağını vurğulayıb.

❖ ❖ ❖

"Azərbaycan yüz illər boyu ölkənin tələbatını ödəmək üçün kifayət edən böyük həcmdə qalıq enerji ehtiyatlarına malik olmasına baxmayaraq, "yaşıl enerji"yə sürətli keçidi hədəfləyib".

Bu barədə Omanın aparıcı qəzetlərindən biri olan "Times of Oman"ın "Azərbaycan sürətlə "yaşıl enerji"yə keçidə doğru irəliləyir" adlı məqaləsində deyilir.

Məqalənin müəllifləri qeyd edirlər ki, Azərbaycan külək, günəş enerjisi və "yaşıl hidrogen" sahəsində təşəbbüslər də daxil olmaqla, "fossil" yanacaqlardan asılılığın azaldılmasında böyük nailiyyətlər əldə edib.



"Azərbaycan öz bərpaolunan enerji potensialını inkişaf etdirməyə can atır ki, bu da ölkənin 2050-ci ilə qədər istixana qazı emissiyalarını 40 % azaltmaq planının mühüm hissəsidir. Azərbaycan həmçinin 2030-cu ilə qədər enerji balansında bərpa olunan enerji mənbələrinin payını 30 %-ə çatdırmaq və mövcud enerji sistemini şaxələndirmək niyyətindədir", - məqalədə vurğulanıb.

Nəşr qeyd edib ki, noyabrda keçiriləcək COP29 ərəfəsində KİV nümayəndələrinin ölkəyə səfəri təşkil olunub və səfər zamanı onlar Azərbaycanın "yaşıl keçid"inə töhfə verən bəzi enerji obyektlərinə baş çəkiblər.

Onların arasında Azərbaycanın xarici investisiyalı ilk müstəqil günəş enerjisi layihəsi olan 230 MVt gücündə Qaradağ Günəş-Elektrik Stansiyası da olub.

Media nümayəndələri həmçinin Balaxanı qəsəbəsində Bakı bərk məişət tullantılarının yandırılması zavodunda da olublar.

Bundan əlavə, məqaləyə əsasən, xarici jurnalistlər COP29-un keçiriləcəyi Bakı Olimpiya Stadionuna da baş çəkiblər.

"Bakı stadionu təkcə idman və əyləncəli tədbirlərin keçirildiyi məkan deyil, həm də Azərbaycanın beynəlxalq tədbirlərə evsahibliyi etmək iqtidarında olmasının simvoludur. O, regionda idmanın, inklüzivliyin, mədəniyyətin və turizmin inkişafında mühüm rol oynayır. 2015-ci il martın 18-də açılmış stadion bu gün regionun ən böyük və ən müasir stadionlarından biridir", - məqalədə bildirilib.




# BMT-nin regional direktoru ilə COP29-a hazırlıq müzakirə olunub

**İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov BMT-nin İnkişafın Koordinasiyası Ofisinin Avropa və Mərkəzi Asiya üzrə regional direktoru Qvi-Yeop Sonunla görüşüb. Bu barədə Ekologiya və Təbii Sərvətlər Nazirliyi xəbər verir.**

"Görüşdə Dayanıqlı İnkişaf Məqsədlərinin ölkə səviyyəsində icrası, ərzaq təhlükəsizliyi, insan kapitalı, gender bərabərliyi və ətraf mühitin dayanıqlılığı istiqamətində BMT ilə aparılan səmərəli tərəfdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb", - məlumatda qeyd olunub.

Bundan başqa, məlumatda deyilir ki, cari ilin iyul ayında BMT-nin Yüksək Səviyyəli Siyasi Forumu çərçivəsində təqdim edilən ölkəmizin sayca 4-cü Könüllü Milli Hesabatının hazırlanmasında BMT-nin Ölkə üzrə Ofisinin dəstəyi, "2021-2025-ci illər üçün Birləşmiş Millətlər Təşkilatı və Azərbaycan arasında Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədi"nin icrasında, habelə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) əməkdaşlığı qeyd olunub.

# EMTA və AİB ekspertləri arasında görüş keçirilib

**Enerji Məsələlərini Tənzimləmə Agentliyində (EMTA) Azərbaycanda səfərdə olan Asiya İnkişaf Bankının (AİB) nümayəndə heyətinin bir qrup üzvü ilə görüş keçirilib.**

Bu barədə EMTA xəbər verir.

"Görüşdə EMTA-nın İdarə Heyətinin sədr müavini Rövşən İsmayılov, AİB-in baş enerji mütəxəssisi Nana Qurgenidze və istilik məsələləri üzrə mütəxəssisi Sakari Oksanen, eləcə də AİB-in Bakı ofisinin və agentliyin əməkdaşları iştirak ediblər.

Görüş zamanı bu ilin noyabrında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29), istilik təchizatı sektorunda səmərəliliyin artırılması və dekarbonizasiya, bərpaolunan enerji mənbələrinin təşviqi, eləcə də, AİB-in dəstəyi ilə istilik təchizatı sektorunda pilot layihələrin həyata keçirilməsi və elektroenergetika sektorunda tariflərin tənzimlənməsi istiqamətində müzakirə aparılıb", - məlumatda deyilir.

Görüşdə həmçinin gələcək əməkdaşlıq perspektivləri və qarşılıqlı maraq doğuran məsələlərə toxunulub.

# *Markos NETO:* "COP29-da Azərbaycan sədrliyi yaxşı nəticələr əldə edə biləcək"

**"COP29 maliyyə COP-u olacaq. COP29-da ilk olaraq yeni ölçülə bilən iqlim maliyyəsi razılaşdırılmalıdır".**



Bu barədə BMT-nin Baş katibinin köməkçisi, təşkilatın siyasət üzrə iş və proqram dəstəyi Bürosunun direktoru Markos Neto "X" sosial media hesabında paylaşım edib.

"Biz 100 milyard dollarlıq bir dünyada yaşayırıq. Təəssüf ki, bu 100 milyard dollar şimaldan cənuba kimi çatmır. İndi iqlim maliyyəsinin məqsədini ölçmək üçün başqa bir yol tapmalıyıq. Bu asan olmayacaq. "Yaşıl keçid" trilyonlarla dollara başa gələcək. Bu səbəbdən həqiqət budur ki, noyabrda Bakıda razılaşdırılmalı olan, maliyyə ambisiyalarını təyin edən sistemə ehtiyacımız var. Biz Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (BMTİP) olaraq Azərbaycan hökumətinə dəstək olmaq istərdik və bütün beynəlxalq ictimaiyyət bu nəticəyə nail olmaq üçün COP sədrliyinə yardım etməlidir. Bu, çox mühüm məsələdir, əminəm ki, Azərbaycan sədrliyi yaxşı nəticələr əldə edə biləcək", - deyə o bildirib.

# *Stefan DUJARRİK:* "BMT Baş katibi Azərbaycandan iqlim dəyişikliyi ilə mübarizəmizdə irəliləyiş gözləyir"

**"Şübhə etmirik ki, Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyi dövründə hazırlıqlar yaxşı gedir və bu maksimum diqqət mərkəzindədir".**



Bunu BMT Baş katibinin sözçüsü Stefan Dujarrik deyib.

Sözçü bildirib ki, BMT Baş katibi Antoniu Quterreş COP29-a evsahibliyi edən Azərbaycandan gözləntiləri beynəlxalq təşkilatın iqlim dəyişikliyi ilə mübarizəsində real və konkret irəliləyiş görməkdir.

S.Dujarrik əlavə edib ki, BMT Baş katibi qlobal istiləşmə və iqlim dəyişkənliyi ilə bağlı narahatlığı davam edir və bunun qarşısının alınması üçün bir çox cəbhədə irəliləyiş görmək istəyir: "Baş katibin ötən cümə iqlim dəyişkənliyi ilə bağlı mesajları çox aydın, sadə və çox dramatik idi və bu, təkcə üzv dövlətlərin hərəkətə keçməsi məsələsi deyil. Söhbət qalıq yanacaq sənayesi məsələsidir, bu iqlim dəyişikliyi vəziyyətini, içində olduğumuz dəhşətli vəziyyəti yaratmaqda məsuliyyətlərini nəzərə almasıdır. Buna görə də biz bunun qarşısının alınması üçün başqa məsələlərlə yanaşı, bir çox cəbhədə, o cümlədən itki və zərər baxımından irəliləyiş görmək istəyirik".

# *Türkiyəli deputat:* "COP29-u dəstəkləyir və qürur duyuruq"

**"Türkiyə olaraq biz də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının Azərbaycanda keçiriləcək 29-cu sessiyasını (COP29) dəstəkləyir və qürur duyuruq".**



Bunu Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AK Parti) İstanbul üzrə deputatı, Türkiyə-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Şamil Ayrım bildirib.

Onun sözlərinə görə, COP29-un Bakıda keçirilməsinə Türkiyə hökuməti də xüsusi əhəmiyyət verir.

İqlim dəyişikliyinin dünyanın hər tərəfində ən aktual mövzu olduğunu vurğulayan deputat deyib ki, Azərbaycanın beynəlxalq tədbirlə bağlı təşkilatçılığı yüksək səviyyədə olur:

"Yüz mindən çox insanı rəsmi səviyyədə qarşılamaq, qəbul etmək, yola salmaq, tədbirin qüsursuz keçirilməsi üçün aparılan təşkilati işlər çox diqqətlə həyata keçirilir. Bütün bunlar asan məsələ deyil. Əminəm ki, bütün beynəlxalq tədbirlər kimi, COP29 da Azərbaycanda uğurla həyata keçiriləcək".

Ş.Ayrım əlavə edib ki, beynəlxalq tədbir işğaldan azad edilmiş bütöv Azərbaycanın dünya miqyasında tanıdılması üçün də xüsusi əhəmiyyət kəsb edir.

"Belə tədbirlər Azərbaycanın tanıdılması baxımından da çox vacibdir. Azərbaycanın nüfuzu, dünyada güvəni, etibarı, ölkəyə turist axını gündən-günə artır. Azərbaycanı daha gözəl gələcək gözlədiyinə inanıram", - o vurğulayıb.

# Daşkəsəndə "Yaşıl gələcəyin səsi" mövzusunda elmi-praktik konfrans keçirilmişdir

**Daşkəsəndə rayon icra hakimiyyəti, Azərbaycan Dövlət Aqrar Universiteti və Daşkəsən Dövlət Aqrar İnkişaf Mərkəzinin birgə təşkilatçılığı ilə "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində "Yaşıl gələcəyin səsi" mövzusunda elmi-praktik konfrans keçirilmişdir.**



Konfransı giriş sözü ilə Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Orxan Abbasov açaraq diqqətə çatdırmışdır ki, 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması təkcə ölkəmizə deyil, ümumilikdə bütün dünyaya qlobal çağırışdır. Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafına dair 5 milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyənləşdirilib. Ölkəmizdə ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından, həmçinin dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin reallaşdırılması tədbirlərinin həyata keçirilməsi davam edir. 2024-cü ilin noyabr ayında Azərbaycan dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına - COP29-a evsahibliyi edəcək. 70 minə yaxın iştirakçının qatılacağı COP29-un ölkəmizdə keçirilməsi Prezident İlham Əliyevin uzun illər ərzində yorulmadan bu istiqamətdə həm ölkə daxilində, həm də xaricdə apardığı böyük ekoloji siyasətinin bəhrəsidir. Bu tədbirin Azərbaycanda keçirilməsi böyük etimadın göstəricisi olmaqla, ölkəmizin qlobal problemlərin həllində məsuliyyətli və etibarlı tərəfdaş mövqeyini bir daha təsdiqləyir.

Konfransda "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Daşkəsən rayonunda görülən işlər də diqqətə çatdırılmışdır. Yaşıllaşdırma və bioloji müxtəliflik sahəsində nəzərdə tutulan tədbirlərin icrası ilə bağlı rayonun müxtəlif ərazilərində keçirilmiş çoxsaylı ağacəkmə aksiyaları müsbət dəyərləndirilmişdir.

Tədbirdə su ehtiyatlarından səmərəli istifadənin təmin olunması, alternativ su mənbələrinin yaradılması və həmin mənbələrdən istifadənin genişləndirilməsi istiqamətində təkliflər irəli sürülmüşdür. Bundan başqa, bərk məişət tullantılarının yerləşdirilməsi, utilizasiyası və zərərsizləşdirilməsi məqsədilə yaşayış məntəqələrində çoxsaylı iməciliklər və təmizlik aksiyaları keçirilməsinin vacibliyi qeyd edilmişdir.

Konfransda qlobal iqlim dəyişikliklərinə uyğun olaraq yeni yay otlaqlarının, balverən bitkilərin, həmçinin dağ meyvəçiliyinin yaradılması perspektivləri barədə fikir mübadiləsi aparılmışdır. Yerli genofondun qorunması problemləri, ərzaq təhlükəsizliyinin təmin olunması məqsədi ilə məhsuldar ekoloji şəraitə uyğun buğda sortlarından istifadə, kartofçuluqla bağlı dövlət proqramları və regionda kartofçuluğun mövcud vəziyyəti, dağ bölgəsində intensiv meyvəçilik problemləri, qlobal istiləşmə və hidroponik sistem və digər mövzularda məruzələr dinlənilmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Sağlam ətraf mühit uğrunda mübarizə böyük sərmayələr tələb edir

## Prezident İlham ƏLİYEV: "Bu işə öz töhfəmizi verməyə hazırıq"



**İqlim dəyişmələrinin yaratdığı fəsadları aradan qaldırmaq, sağlam ətraf mühit formalaşdırmaq, bir sözlə, ekoloji problemlərlə mübarizə külli miqdarda vəsait tələb edir. Odur ki, bir neçə aydan sonra Azərbaycanda keçiriləcək COP29-da müzakirə ediləcək əsas məsələlərdən biri də məhz budur.**

2030-cu ilə qədər iqlim və ətraf mühit üçün ən azı 1 trilyon dollar investisiya lazımdır. Bunu COP20-nin prezidenti olmuş WWF-nin iqlim və enerji məsələləri üzrə rəhbəri Manuel Pulqar-Vidal deyib. Qeyd edək ki, WWF, yəni World Wide Fund for Nature təbiətə qarşı ziyanı dayandırmağı və vurulan ziyanı bərpa etməyi hədəfləyən beynəlxalq qeyri-hökumət təşkilatı, Ümumdünya Təbiəti Mühafizə Fondudur. Dünyada beş milyondan çox tərəfdarı olan bu ən böyük mühafizə təşkilatı 100-dən çox ölkədə fəaliyyət göstərir. İndiyədək minlərlə ətraf mühit layihəsini dəstəkləyib.

WWF-in rəsmisi M.Vidal COP29-la bağlı gözləntilərini bildirərək deyib ki, Azərbaycan bu tədbirlə bağlı iddialı nəticəyə nail olmaq üçün fəaliyyətini gücləndirməli və iqlim dəyişmələri üzrə Çərçivə Konvensiyasının bütün tərəflərini səfərbər etməlidir: "Azərbaycanın COP29-a evsahibliyi etməsi ona təkcə danışıqları təşviq etmək deyil, həm də gələcək nəsillər üçün miras yaratmaq imkanı verir. Dəqiq müddətlərin müəyyən edilməsi, ekspert məsləhətləşmələrindən istifadə, maliyyə danışıqlarının intensivləşdirilməsi və öhdəliklərin yerinə yetirilməsi üçün ölkələrə təzyiq COP-un uğurlu olmasına səbəb ola bilər".

O, həmçinin qeyd edib ki, COP28 sazişi qalıq yanacaq dövrünün "sonunun başlanğıcı" olmalı idi: "Ancaq Dubaydakı sammitdən sonra irəliləyiş məyusedici dərəcədə yavaş idi. $1,5^0$ C-lik hədəf üçün fürsət pəncərəsi tez bağlanır. Biz Bakıda yeni iqlim maliyyə hədəfi üzrə sazişin uğursuz olmasına yol verməməliyik".

M.Vidalın sözlərinə görə, maliyyə danışıqlarının səmərəli idarə olunması proaktiv addımlar atmaq və lazımi maliyyələşmənin miqyasının qəbul edilməsi tələbini irəli sürəcək. 190-dan çox ölkənin ehtiyacları və tələbləri arasında balans yaratmaq çətin məsələ olsa da, biznes, hökumət və vətəndaş cəmiyyəti liderləri ilə qarşılıqlı fəaliyyət sayəsində mümkündür.

Bu mövzu Meksikanın nüfuzlu ali təhsil ocaqlarından olan Meksika Milli Muxtar Universitetinin professoru Talya İşcanın müəllifliyi ilə tanınmış "Milenio" qəzetində dərc edilmiş COP29-a dair məqalədə də işıqlandırılıb.

Müəllif məqalədə inkişaf etmiş ölkələrin iqlim dəyişikliyi təsirlərinin azaldılması və uyğunlaşma strategiyalarını həyata keçirə bilmələri üçün inkişaf etməkdə olan ölkələrə adekvat maliyyələşdirmə yardımının etməsinin vacibliyindən də söz açıb. Meksikanın iqlim dəyişikliyinin nəticələrindən əhəmiyyətli dərəcədə əziyyət çəkdiyini xatırladaraq Meksika və digər inkişaf etməkdə olan ölkələrin COP29-da müzakirə olunacaq iqlim maliyyələşdirməsindən faydalana bilmə imkanından danışıb. Bu maliyyələşmənin "yaşıl infrastruktur" layihələri, bərpaolunan enerji və iqlimə davamlılıq proqramları üçün çox vacib olduğunu, COP29-un gündəliyinə iqlim maliyyələşdirilməsi mexanizmləri, Paris sazişinin icrası və istixana qazları emissiyalarının azaldılması naminə beynəlxalq əməkdaşlıq üzrə müzakirələrin daxil olacağını, habelə iqlim ədaləti, həssas icmaların dayanıqlılığı və iqlim dəyişikliyi ilə mübarizə üçün texnoloji yeniliklər kimi mövzulara toxunulacağının gözlənildiyini deyib.

Sonda Meksika-Azərbaycan münasibətlərinə toxunan müəllif iki ölkə arasında münasibətlərin möhkəmləndiyini, təhsil, mədəniyyət və xüsusilə ətraf mühitin mühafizəsi kimi sahələrdə ortaq maraqları bölüşdüyünü bildirib. Davamlılıq layihələri üzrə əməkdaşlığın bilik və "yaşıl texnologiya"ların mübadiləsi baxımından hər iki ölkəyə fayda verə biləcəyini qeyd edib.

Azərbaycanın "yaşıl gündəliyi" artıq dünyaya bəllidir. Bu istiqamətdə işlərimiz hələ COP29-un ölkəmizdə keçirilməsinə qərar verilməzdən çox əvvəl başlanıb. Cari ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması ilə ölkəmizin COP29-a evsahibliyi etməsi də, əslində, bir-birini tamamlayır. O ki qaldı sözügedən mövzuya, buna Prezident İlham Əliyev dəfələrlə toxunub. Elə iyulun 20-də Şuşada keçirilən II Qlobal Media Forumunu xatırlayaq. Həmin tədbirdə dövlətimizin başçısı demişdir: "Elə bir platforma yaradılmalıdır ki, daha geniş maliyyə imkanlarına malik olan ölkələr digərlərinə kömək etsin... "OPEC+" formatının üzvü olaraq biz neft istehsalçısı olan ölkələrlə bu sahədə öz işimizi gördük. Əlbəttə, daha çox gəlir əldə edən ölkələr daha çox maliyyə töhfəsi verməlidir. O ölkələr ki, atmosferə daha çox tullantı buraxır və pulları var, onlar da maliyyə baxımından töhfə verməlidir. Ancaq beynəlxalq səviyyədə qiymətləndirmə odur ki, buna trilyonlarla dollar vəsait lazımdır və bu vəsait haradan gələcək? Bu, çox açıq bir sualdır. Yəni inkişaf edən ölkələrə dəstək göstərilməlidir və dediyim kimi, biz inkişafda olan kiçik ada ölkələri üçün fond yaratdıq. Ancaq biz inkişaf etməkdə olan hər bir ölkə ilə bağlı fond yarada bilmərik. Bizim o qədər pulumuz yoxdur. Əlbəttə, bu işdə həmrəylik olmalıdır və digərlərini təşviq etməliyik ki, bizim nümunəmizə uyğun olaraq hərəkət etsinlər. Biz istəyirik ki, Azərbaycanda keçiriləcək COP29 məhz həmrəylik tədbiri olsun. Biz ona görə də bu ili "Yaşıl dünya naminə həmrəylik ili" elan etmişik. Demirəm ki, biz bütün hədəflərimizə tam şəkildə nail olacağıq, ancaq bu işə öz töhfəmizi verməyə hazırıq".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

İŞİMİZ, GÜZƏRANIMIZ

# Azərbaycan elektrik enerjisinin əlçatanlığına görə də öndədir

**Azərbaycan bu gün öz davamlı inkişaf sürətinə görə dünyanın inkişaf etmiş ölkələri ilə eyni addımlayır. Həyata keçirilən hərtərəfli, şaxələndirilmiş, davamlı inkişaf strategiyası nəticəsində ölkəmiz iqtisadiyyatın ən müxtəlif sahələrində böyük yüksəlişə nail olub. Uğurla gerçəkləşdirilən məqsədyönlü iqtisadi siyasət nəticəsində digər iqtisadi sahələrlə yanaşı, energetika, xüsusən elektroenergetika sferası da genişlənir, inkişaf edir.**



Qeyd edək ki, Azərbaycanın elektroenergetika sisteminin tarixi 1883-cü ildə Bakıda Nobel qardaşları tərəfindən hər birinin gücü 75 at gücündə 3 buxar turbinindən ibarət 220 volt gərginlikli generasiya güclərinin quraşdırılması ilə başlanıb. 1901-ci ildə 2000 at gücü olan "Bibiheybət" elektrik stansiyası, 1902-ci ildə isə Qara şəhərdə (indiki Ağ şəhər) 2000 at gücündə olan elektrik stansiyası istismara verilib. XX əsrin 40-cı illərində dərin neft quyularının qazılması və istismarının planlaşdırılması elektrik enerjisinə olan tələbatın artması ilə müşayiət olunub. Kür çayı üzərində tikintisi nəzərdə tutulan elektrik stansiyaları silsiləsinin aşağı pilləsi olan Mingəçevir SES 1954-cü ildə işə salınıb. Üç il sonra isə həmin su qovşağı qurğuları kompleksinə daxil olan "Varvara" SES istismara buraxılıb. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1981-ci il oktyabrın 20-də Cənubi Qafqazın ən böyük istilik-elektrik stansiyası olan Azərbaycan DRES-in (indiki "Azərbaycan" İES-in) birinci blokunun istismara verilməsilə energetikanın inkişafında yeni bir mərhələnin və bugünkü müstəqil Azərbaycanın elektrik enerjisi təhlükəsizliyinin əsası qoyulub.

Əminliklə söyləmək olar ki, indi Azərbaycanın elektroenergetika sistemi özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu, həm enerji təhlükəsizliyinin təmin edilməsi, həm də enerji resurslarından səmərəli istifadə baxımından əldə olunan mühüm, əhəmiyyətli bir nəticədir. Enerji sektorunda, bilavasitə, energetika sferasında əldə olunan müsbət dəyişikliklər enerji istehsalı sahəsində qabarıq görünür.

Son illər enerji hasilatı və ölkənin elektrik enerjisi ilə yüksək səviyyədə təchiz olunması ilə bağlı sistemli, planlı tədbirlər öz bəhrəsini verir. Qürurla deyə bilərik ki, bu gün Azərbaycan özünün elektrik enerjisinə olan tələbatını tamamilə yerli istehsal hesabına ödəyir. 2020-ci ilin avqustunda Prezident İlham Əliyevin təməlini qoyduğu 385 meqavatlıq "Qobu" Elektrik-Stansiyası və yükgötürmə gücü 1000 meqavat olan 330/220/110 kilovoltluq "Qobu" yarımstansiyası rekord müddətdə - iki ilə tikilib.

Azərbaycan energetikasının tarixində ilk dəfə istilik-elektrik stansiyasının layihələndirilməsini xarici institutlar deyil, "Azərenerji" ASC-nin Layihə-Axtarış Energetika İnstitutu layihələndirib və tikintini də yerli şirkət həyata keçirib. Ən əsası odur ki, burada tikilən yarımstansiya Bakıda inşa olunan ilk 330 kilovoltluq yarımstansiyadır. Stansiyanın açılışında dövlət başçısı bildirib ki, 2004-cü ildə qəbul edilən regionların sosial-iqtisadi inkişafına dair I Dövlət Proqramında elektrik stansiyalarının tikintisi xüsusi nəzərə alınıb: "O vaxtdan bu günə qədər ölkəmizdə 30-dan çox elektrik stansiyası tikilib. Mən onların arasında əlbəttə ki, böyük stansiyaları xüsusilə qeyd etmək istərdim. Çünki həmin stansiyalar tikilməsəydi, bu gün biz öz enerji potensialımızı bu səviyyəyə çatdıra bilməzdik. Yadımdadır, birinci regional inkişaf proqramı qəbul olunandan sonra 525 meqavat gücündə "Sumqayıt" Elektrik-Stansiyası tikildi. Ondan sonra digər stansiyalar - təxminən 800 meqavat gücündə "Cənub" stansiyası, 400 meqavata yaxın gücü olan "Şimal-2" stansiyası, generasiya gücü 300 meqavat olan "Səngəçal" Elektrik-Stansiyası. Ölkəmizin müxtəlif yerlərində modul tipli beş stansiya tikilmişdir ki, o stansiyaların hər birinin generasiya gücü təxminən 90 meqavatdır".

Prezidentin sözlərinə söykənərək deyə bilərik ki, Azərbaycanın enerji sektoru dayanmadan inkişaf edir, uğurlar qazanır. Halbuki 20-30 il əvvəl tam başqa mənzərə idi, enerji sistemi demək olar ki, çökmüşdü. 90-cı illərdə elektrik enerjisi ilə bağlı çətinliklər hamımızın yadındadır. İnsanlar evdə oturub elektrikin veriləcəyi vaxtı həsrətlə gözləyirdilər. Hətta rayonlarda mərasimlərin keçirilməsində benzinlə işləyən generatorun ehtiyatını görürdülər ki, qaranlıq düşəndə 1-2 lampanı işıqlandıra bilsinlər. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı yenidən bu sahədə problemlərin azalmasına qapı açdı, elektrikin verilişində fasilələr aradan qalxmağa başlandı. Bu gün ölkəmiz həm özünü dayanıqlı elektriklə təmin edir, həm də qonşu İran, Rusiya, Gürcüstan, Türkiyə və oradan da Avropa bazarına enerji ixrac edən ölkəyə çevrilib. Elektrik enerjisinə əlçatanlığına görə Azərbaycan dünyada 2-ci yerdədir. Təbii ki, bu, son illərin uğurudur. Bu da o deməkdir ki, son 20 il ərzində ölkəmizin elektrik enerji gücü 2 dəfə artıb.

Ən son faktlara müraciət edək. Energetika Nazirliyindən verilən məlumata görə, 2024-cü ilin birinci yarısında ölkə üzrə elektrik enerjisinin istehsalı 13557,4 milyon kVt.s olub. Altı ay ərzində elektrik enerjisi istehsalı İES-lərdə 11525 milyon kVt.s, SES-lərdə 1581,1 milyon kVt.s, digər mənbələr üzrə isə 451,3 milyon kVt.s təşkil edib. Bu dövrdə külək-elektrik stansiyalarında 29,7 milyon kVt.s, günəş-elektrik stansiyalarında 286,6 milyon kVt.s, Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda isə 135 milyon kVt.s elektrik enerjisi istehsal edilib. Beləliklə, "yaşıl enerji" mənbələri üzrə elektrik istehsalı ötən ilin müvafiq dövrünə (1081,7 milyon kVt.s) nisbətən iki dəfəyə yaxın artaraq 2032.4 milyon kVt.s olub. Bu müddətdə elektrik enerjisinin istehsalı "Azərenerji" ASC üzrə 11918,9 milyon kVt.s (İES-lərdə 10 452,1 milyon kVt.s, SES-lərdə 1466,8 milyon kVt.s), Naxçıvan MR Dövlət Energetika Xidməti üzrə 224 milyon kV.s (İES-lərdə 88 milyon kVt.s, SES-lərdə 105,5 milyon kVt.s, "Günəş" ES-də 30,5 milyon kVt.s), "Azərişıq" ASC üzrə külək-elektrik stansiyalarında 21,9 milyon kVt.s təşkil edib. 2024-cü ilin ilk 6 ayı üzrə elektrik enerjisinin ixracı və idxalı bu rəqəmlərdə ehtiva olunub: 444 milyon kVt.s və 96,4 milyon kVt.s.

Azərbaycan energetikasının son 20 illik inkişaf göstəriciləri, xüsusilə də qeyd etdiyimiz faktlar bu sektorda yüksək artım üçün böyük potensialın mövcudluğunu əyani şəkildə təsdiqləyir. Bu sahə investisiya tutumluluğuna görə neft-qaz sektorundan sonra ikinci yerdə dayanır. Elektrik enerjisi daha çox sosial məzmun və mahiyyət kəsb etməklə yanaşı, sivilizasiyanın inkişafını, iqtisadi tərəqqini şərtləndirən mühüm amillərdən sayılır. Müasir texnologiyaların dinamik inkişafını, energetik təminatını, sosial-iqtisadi həyata daha fəal, səmərəli tətbiqini şərtləndirir.

***Züleyxa ƏLİYEVA, "Azərbaycan"***

# Qazaxda taxıl biçini başa çatdı



**Ölkəmizdə dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən birini əhalinin etibarlı ərzaq təminatı təşkil edir. Kənd təsərrüfatının əsasını təşkil edən taxılçılıq isə bu sahədə mühüm əhəmiyyət daşıyır.**

Məlumdur ki, taxılçılıq həm əhalinin çörək və çörək məmulatlarına olan tələbatını, həm də heyvandarlığın qüvvəli və qaba yemə olan tələbatının ödənilməsində böyük rol oynayır. Məhz bu səbəbdən taxılçılığın inkişafı daim dövlətimizin diqqət mərkəzində saxlanılır.

Dövlət başçısının taxılçılığın inkişaf etdirilməsi ilə bağlı qarşıya qoyduğu vəzifələr, verdiyi tapşırıq və tövsiyələr son illər Qazax rayonunda da uğurla icra olunur. Belə ki, dövlətin bu sahəyə olan diqqət və qayğısından bəhrələnən fermerlər hər il olduğu kimi, bu il də yüksək göstəricilər əldə etdilər.

Qeyd edək ki, 2024-cü ilin məhsulu üçün payızlıq və yazlıq olmaqla rayonda 11445 hektar sahədə taxıl əkilmişdir. Bunun da 4507 hektarı buğda, 6938 hektarı arpa sahəsi olmuşdur. Aqrotexniki tədbirlərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsinin nəticəsidir ki, zəmilərdə bol taxıl yetişdirilmiş və vaxtında biçilərək anbarlara yığılmışdır. Artıq bir neçə gündür biçin başa çatmışdır. 11445 hektar biçilmiş taxıl sahəsindən 35676 ton məhsul götürülmüşdür ki, bu da hər hektardan orta məhsuldarlığın 31,2 sentner olması deməkdir.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

# Bu il Şəkidə 151 min tondan çox taxıl istehsal olunub

**Şəki rayonunun təsərrüfatlarında taxıl biçini başa çatıb. Cari mövsümdə rayonda 57 min 221,1 hektar sahənin məhsulu biçilib, 151 min 564,6 ton taxıl istehsal olunub. Hər hektara görə orta məhsuldarlıq 26,5 sentner təşkil edib.**



Bu barədə Şəki Dövlət Aqrar İnkişaf Mərkəzindən məlumat verilib. Qurumdan bildirilib ki, builki mövsümdə şəkili fermerlər 23 min 919,1 hektar buğda sahəsindən 63 min 909,2 ton, 33 min 302 hektar arpa sahəsindən isə 87 min 655,4 ton məhsul əldə ediblər. Buğda sahələrinin hər hektarının orta məhsuldarlığı 26,7 sentner, arpa sahələrinin məhsuldarlığı isə 26,3 sentner olub.

Rayon üzrə ən yüksək məhsuldarlıq Baş Kəldək, Daşüz, Baş Küngüt, Aydınbulaq kəndlərinin ərazilərindəki buğda sahələrində qeydə alınıb. Belə ki, həmin təsərrüfatlarda buğda zəmilərində orta məhsuldarlıq 30-35 sentner təşkil edib.

Hazırda rayonun təsərrüfatlarında payızlıq dənli bitkilərin səpini üçün yay şumunun çıxarılmasına başlanılıb. Eyni zamanda taxıl biçini başa çatmış təsərrüfatlarda indiyədək 200 hektaradək sahədə təkrar əkinlər aparılıb.

# "Kiber Diaspor" uğurla fəaliyyət göstərir

## Azərbaycan "Milli Kibertəhlükəsizlik İndeksi"nin reytinq cədvəlində 17-ci pillədə qərarlaşıb

**İnformasiya texnologiyaları və onlardan təhlükəsiz istifadənin tənzimlənməsi dövlətimizin bu sahədə yürütdüyü üstün siyasətin prioritet istiqamətlərindən biridir. Əgər əvvəllər informasiya texnologiyalarına nəzarət və baxış fərqli, bir qədər yayğın idisə, üzləşəcəyimiz kiberfəlakətlərin miqyası indiki qədər düşünülmürdüsə, müəyyən qurumlar vəzifələri bölüşüb iş aparırdılarsa, 2023-cü ilin sentyabrından məsələlər daha dəqiq, günün tələbləri səviyyəsində, mərkəzləşmiş, yeni normativ-hüquqi aktlarla tənzimlənərək inkişaf edir.**

Məlum olduğu kimi, ötən il avqustun 28-də Prezident İlham Əliyev "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyası"nı təsdiq etmişdir. 8 bölmədən ibarət bu vacib sənəd ciddi məqamları vurğulayır, qlobal trendləri, mövcud vəziyyətin təhlilini, hədəf göstəricilərini, məqsədləri, prioritet istiqamətləri, təhdidlərin müəyyənləşdirilməsini və risklərin idarə edilməsini, maliyyələşdirmə mexanizmlərini göstərir. Strategiyada açıq formada yazılır ki, o, dövlətin, cəmiyyətin və insanların müasir İKT-dən təhlükəsiz istifadəsinin təmin edilməsi üçün milli informasiya təhlükəsizliyi səviyyəsinin yüksəldilməsinə, dövlət və özəl şəbəkələrin, kritik informasiya infrastrukturlarının təhlükəsizliyinin təmin olunmasına aid tədbirlərin müəyyənləşdirilməsinin və həyata keçirilməsinin təşkilinə, həmçinin fərdi məlumatların mühafizəsinə, Azərbaycan Respublikasının Konstitusiyası ilə təsbit edilmiş insan hüquq və azadlıqlarına riayət edilməsinə daha əlverişli şəraitin yaradılmasına xidmət edir.

Strategiyanın üçüncü bölməsində Azərbaycanın informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik istiqamətində keçdiyi yola nəzər salınır, görülmüş bir çox hüquqi və təşkilati tədbirlər göstərilir, üzv olduğumuz aidiyyəti beynəlxalq konvensiya və proqramlar sadalanır. Ölkəmizin 2001-ci il noyabrın 23-də Budapeşt şəhərində imzalanmış "Kibercinayətkarlıq haqqında" konvensiyaya qoşulmasından tutmuş, "İnformasiya təhlükəsizliyi sahəsində fəaliyyətin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 26 sentyabr tarixli fərmanı, informasiya təhlükəsizliyi məsələlərinə məsul qurumlar - Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi və Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Mərkəzi, "Xüsusi dövlət mühafizəsi sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 16 mart tarixli fərmanı ilə Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyinin bazasında müstəqil olaraq Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti yaradılması və sair məsələlər xatırlanır. 19 aprel 2022-ci il tarixində dövlət qeydiyyatına alınmış Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası (AKTA) da kibertəhlükəsizlik və informasiya-kommunikasiya texnologiyaları sahəsində fəaliyyət göstərən ekspert, şirkət və təşkilatların vahid platformasıdır. Assosiasiyanın əsas məqsədlərini ölkədə kibertəhlükəsizlik ekosisteminin gücləndirilməsi, kibertəhlükəsizliyin təmini sahəsində həyata keçirilən tədbirlərin əlaqələndirilməsinə və müvafiq sahənin inkişafına təkan verilməsi təşkil edir. Kibertəhlükəsizliyin təmini ilə əlaqədar layihə və proqramların hazırlanması, müvafiq sahənin inkişafı ilə bağlı təkliflərin işlənməsi və tədbirlərin həyata keçirilməsinə töhfələr, milli, elmi-texniki və kadr potensialının gücləndirilməsinə dəstək, sözügedən yöndə ölkədaxili, regional və beynəlxalq əməkdaşlığın genişləndirilməsi, bu sahədə ixtisaslaşmış yerli və xarici fiziki və hüquqi şəxslərin fəaliyyətini əlaqələndirmək, eləcə də İKT üzrə maarifləndirmə və məlumatlandırmanı həyata keçirmək, ölkədə kibertəhlükəsizlik mədəniyyətinin inkişafına çalışmaq qurumun əsas fəaliyyət istiqamətləridir.



Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının cari ilin 6 ayı üzrə açıqladığı hesabatda da bu qəbildən məsələlər öz əksini tapır. Sənədə əsasən, həmin dövr ərzində AKTA-nın sıralarına qoşulmaq üçün ümumilikdə 62 müraciət ünvanlanıb və 20 subyekt üzvlüyə qəbul edilib. Hazırda 55-i hüquqi şəxs olmaqla assosasiya üzvlərinin sayı 128-ə çatıb. Habelə AKTA-nın veb-saytında üzvlər üçün şəxsi elektron kabinet, o cümlədən elektron məhsul və xidmətlər kataloqu yaradılıb, kibertəhlükəsizlik məhsul növü üzrə alt-kateqoriyalar, zəruri sorğu bölmələri əlavə edilib və hazıradək kataloqda 30 məhsul və xidmətə dair məlumatlar yerləşdirilib. Həmin müddətdə ölkə xaricində İT və kibertəhlükəsizlik sahəsində çalışan peşəkar həmyerlilərimizin qlobalmiqyaslı virtual icması və şəbəkələşmə platforması olan "Kiber Diaspor" yaradılıb. Əlavə olaraq, kibertəhlükəsizlik, informasiya təhlükəsizliyi və informasiya texnologiyaları sahələri üzrə mövcud məsələ və problemlərin müzakirə edilməsi, məlumat mübadiləsinin həyata keçirilməsi, həmçinin təklif, tövsiyə və sənədlərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi məqsədilə AKTA üzvü olan hüquqi şəxsləri təmsil edən ekspertlər və müstəqil AKTA ekspertlərindən ibarət 4 komitə fəaliyyətə başlayıb.

Maarifləndirmə və kadr potensialının gücləndirilməsinə dəstək məqsədilə AKTA tərəfindən bir sıra müxtəlif tədbirlər (forum, konfrans, seminar, vebinar, yarış, təlim və s.) keçirilib və bu tədbirlərə 2 min nəfərdən artıq iştirakçı qatılıb. O cümlədən 15 ölkədən 400 nəfərdən artıq iştirakçının cəlb edildiyi, 30-dan artıq çıxışçıdan ibarət 5 panel müzakirəsinin, habelə texnoloji sərginin baş tutduğu III Milli Kibertəhlükəsizlik Forumu təşkil olunub.

Bununla yanaşı, kibertəhlükəsizlik sahəsində əməkdaşlığın genişləndirilməsi məqsədilə 40-dan çox müxtəlif yerli və beynəlxalq şirkət və təşkilatla görüş və müzakirələr baş tutub, AKTA nümayəndələrinin xarici ölkələrə dörd işgüzar səfəri reallaşıb. Ali təhsil müəssisələri və ölkənin 15 ali təhsil ocağında yaradılmış kiberklublarla əlaqələr davam etdirilib, həmçinin üç ali təhsil müəssisəsi ilə əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb.

AKTA tərəfindən həmçinin tədqiqat və inkişaf istiqaməti üzrə də bir sıra layihə və tədbirlər icra olunub. Ölkənin qlobal kibertəhlükəsizlik reytinqlərində mövqeyinin gücləndirilməsi istiqamətində həyata keçirilmiş müvafiq fəaliyyət nəticəsində, indiyədək 53 ölkənin 49 indikator üzrə qiymətləndirildiyi "Milli Kibertəhlükəsizlik İndeksi"nin ("National Cybersecurity Index") reytinq cədvəlində Azərbaycan 70,83 balla 17-ci pillədə qərarlaşıb. Vurğulayaq ki, bu, indiyədək qazanılmış ən yüksək göstəricidir.

Eyni zamanda ölkədə kibertəhlükəsizlik səviyyəsinin qiymətləndirilməsi məqsədilə "Milli Kibertəhlükəsizlik İndeksinin" yaradılması üzrə layihə çərçivəsində işlər davam etdirilir. Əlavə olaraq, "İnformasiya təhlükəsizliyi ixtisası üzrə elmi-metodiki tədris (çap və onlayn) vəsaitlərinin hazırlanması" adlı qrant layihəsi çərçivəsində İnformasiya təhlükəsizliyi ixtisası üzrə fənn sillabusları, üç çap və üç elektron tədris metodiki vəsait (3 fənn üzrə) hazırlanaraq müvafiq təhsil müəssisələrinə təqdim edilib və 10 ali təhsil ocağında təlimlər həyata keçirilib.

***Qurban MƏMMƏDOV, "Azərbaycan"***



# Vətən deyəndə...



● Qarabağ Azərbaycandır!



## İgidliyin, cəsarətin və məğrurluğun təntənəsi

**Azərbaycan xalqının cəsur övladları zaman-zaman torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə böyük igidlik və qəhrəmanlıqlar göstərmişlər. Tarix boyu bu qəhrəmanlar hörmətlə anılmış, ehtiramla xatırlanmışdır. Onların keçdiyi şərəfli döyüş yolu bütün gələcək nəsillər üçün bir örnək, bir qürur mənbəyi olmuşdur.**

Qəhrəmanlıq bədii əsərlərdə də özünə yer tutub. Bu dəyərli əsərləri oxuduqca zənn edirsən ki, qəhrəmanlıq sanki əlçatmaz ucalıqdadır. Amma məqamı yetişəndə şahidi olduq ki, qəhrəmanlıq o qədər də uzaqda deyilmiş. Çünki bəzən tanıdığın adi bir insan yurda düşmən hücumu olanda Vətən deyib döyüşlərə atılır. O bu döyüşlərdə gözlənilmədən ağlasığmaz qəhrəmanlıq göstərərək ətrafındakıları heyrətə salır. Cəsarəti ilə, düşmənə meydan oxuya-oxuya adını qəhrəmanların sırasına yazır.

Tarix onu da dəfələrlə göstərib ki, qəhrəmanlıq insanların camalında deyil, kamalında, mənəviyyatındadır. Doğrudan da, duyğu və hisslərimizdə yaşayan məğlubedilməz ruh insan ömrünü bir an içində qəhrəmanlıqdan yoğrulmuş əbədiyyətə çevirir.

İnsanları rəşadət və hünər göstərməyə sövq edən hansı hiss və duyğulardır? İlk növbədə onun ürəyində kök salmış cəsarətdir. Böyük türk sərkərdəsi Attila demişdir: *"Cəsarət əlində silah olan insan deyil. Cəsarət çatacağın yeri bilmədən yola çıxmaqdır. Başlayırsan və səbəb nə olursa-olsun, o yoldan keçirsən..."*

Zabit və əsgərlər hərb meydanlarında döyüşlərə igidliyin və şücaətin çiyinlərində gedirlər, cəsarətlə vuruşaraq bir an içində xəyallarını reallığa çevirərək ölməzlik səltənətində qəhrəmanlığın bayrağını əbədi olaraq dalğalandırırlar. 44 günlük Vətən müharibəsində biz belə qəhrəmanları çox gördük. Qəhrəmanlıq insanın ləyaqətində, vicdanında yüksək yer tutan mənəvi iftixardır. İnsana daim ruh və güc verən bu iftixar bir an içində ona böyük şöhrət qazandırır. İstər filmlərdə, istər bədii əsərlərdə, istərsə də həyatda dəfələrlə şahidi olmuşuq ki, hərb meydanında igidliklə vuruşub həlak olanlara bəzən qarşı tərəf də ehtiram göstərir. Bu, qəhrəmanlığın, igidliyin təntənəsi və zəfəri deyilmi?

Əsgərin, zabitin daxilindən onu qəhrəmanlıq göstərməyə sövq edən ən ali güc vətənpərvərlik hissi və döyüşkənlik ruhudur. Bu ruh həm döyüşdə, həm də həyatda onları igid və cəsarətli olmağa yönləndirir. Döyüş ruhu yüksək olan hərbçinin qarşısını kimsə ala bilməz. Nə qədər təhlükəli olsa da, o savaş meydanında hünər göstərərək geriyə zəfərlə dönəcək. Döyüşdə həlak olsa da, vüqarla, məğrurcasına ölərək ölümə də qalib gələcək. Deməli, cəng zamanı döyüş ruhunun yüksək olması qələbəni təmin edən vacib amillərdən biridir.

Müharibədə döyüş ruhunun həlledici rol oynadığını aydın şəkildə göstərmək üçün, belə bir məqama diqqət yetirməyimiz yerinə düşərdi. Əgər idmançı yarışa məğlub hisslərlə qatılarsa, tatami üzərinə məyuscasına çıxarsa, ondan qələbə gözləməyə dəyərmi? Təbii ki, yox! Müdrik bir kəlamda deyilir: *"Ən böyük qələbənin taleyi döyüş meydanlarından əvvəl ürəklərdə həll olunur."* Doğrudan da, əgər döyüşçü savaşa qorxmadan cəsarətlə atılarsa, onun nəsibi yalnız qələbə olacaq. Amma əgər ən müasir silahlara sahib olan əsgərin döyüş ruhu zəifdirsə, qorxu hissindən canını qurtara bilmirsə, onda onun uğur qazanmaq şansı sıfıra bərabərdir.

Əsgərin silahı müasir, döyüş ruhu yüksəkdirsə, deməli o, əzəmətlidir, vüqarlıdır, onu heç bir düşmən qüvvəsi dayandıra bilməz. O, döyüşlər zamanı məğlubedilməz bir qəhrəmana, cəsur bir döyüşçüyə çevrilərək hünər göstərib tarix yazacaq. Torpağını, vətənini işğalçılardan qoruyacaq.

Yaşanmış və artıq bizim üçün keçmişin dəyərli bir parçasına çevrilmiş tariximizin səhifələrində elə qəhrəmanlarımız olub ki, onlar igidlikləri ilə daim bizi heyrətləndiriblər. Qəhrəmanlıq tariximizdə adları şərəflə çəkilən Babəkin, Koroğlunun, Qaçaq Nəbinin igidliyi zaman-zaman bizi hünər göstərməyə ruhlandırıb. Sovet İttifaqı qəhrəmanları Həzi Aslanovun, Mehdi Hüseynzadənin, Gəray Əsədovun, Cəmil Əhmədovun, Ziya Bünyadovun, Məlik Məhərrəmovun və onlarla başqalarının igidliyi bizim üçün tükənməyən qürur mənbəyidir.

Həm Birinci, həm də İkinci Qarabağ müharibələrində böyük igidliklər göstərmiş Azərbaycanın Milli Qəhrəmanları Murad Mirzəyevin, Mübariz İbrahimovun, Vahid Quluyevin, İqor Makayevin, Səxavət Məhərrəmovun, Mətləb Quliyevin, Rasim İbrahimovun, Şükür Həmidovun, Polad Həşimovun, İlqar Mirzəyevin, Çingiz Qurbanovun... və yüzlərlə başqa oğullarımızın döyüşlərdə göstərdiyi igidlik, cəsarət gənc nəsillər üçün həmişə nümunə olacaq. Çünki onlar Vətən uğrunda şəhid olmuşlar. Vətən uğrunda canlarından keçən qəhrəmanlar isə heç vaxt unudulmurlar.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

● Əbədiyyətə qovuşanlar

## Şuşa fatehlərindən biri

**O, 2016-cı ildə baş verən, tarixə Aprel döyüşləri adı ilə yazılan 4 günlük savaşın da qəhrəmanlarından biri idi. Həmin döyüşlərdə işğalçı Ermənistan silahlı qüvvələrinə qarşı rəşadətlə vuruşan Mehrab Niftəliyev kimi igidlərin sayəsində Azərbaycan xalqı illər sonra qalibiyyət sevincini daddı. Azərbaycan Silahlı Qüvvələrinin qələbəsi ilə nəticələnən Aprel döyüşlərində Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi və Tərtər rayonunun Madagiz kəndi istiqamətində yollar düşməndən azad edildi.**



Ancaq Azərbaycanın qəlbi vətənlə döyünən mərd övladları Ermənistanın 1990-cı illərdə qəsb etdiyi Qarabağı, Şərqi Zəngəzuru azadlığa qovuşdurmaq arzusunda idilər. Onlar düşməni məğlubiyyətə uğradaraq böyük zəfər qazanmağa hazır idilər. Və Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin əmrini gözləyirdilər...

Xüsusi Təyinatlı Qüvvələrin baş giziri, kəşfiyyatçı-istehkamçı Mehrab Niftəliyev də vətən torpaqlarının işğalçılardan azad edilməsi uğrunda canından keçməyə hazır idi.

O, 1985-ci il mayın 13-də Quba rayonunun Qam-qam kəndində dünyaya gəlmişdi. 1992-2003-cü illərdə Quba rayon Mübariz Abdullayev adına Qam-qam kənd orta məktəbində təhsil almışdı. Hərbi xidmətə çağırılmışdı. 2003-cü ilin iyulunda əsgəri xidmətə getmişdi. Komandirlərinin verdiyi tapşırıqları məsuliyyətlə yerinə yetirmişdi. Mehrab hərbi xidmətdə olarkən Xüsusi Təyinatlı Qüvvələrin kursundan keçmişdi. Vətənə xidmətini 2005-ci ildən Xüsusi Təyinatlı Qüvvələrin döyüşçüsü kimi davam etdirmişdi. Mehrab Niftəliyev "Qafqaz qartalı" və EFES kimi çətin hərbi təlimləri müvəffəqiyyətlə başa vurmuş, kəşfiyyatçı-istehkamçı kimi ixtisaslaşmışdı.

O, qüsursuz xidmətlərinə görə, 2013-cü ildə "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", 2018-ci ildə isə "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalları ilə təltif edilmişdi.

Həmin illərdə işğalçı ölkənin silahlı qüvvələri atəşkəs rejiminə əməl etmir, Azərbaycan Ordusunun mövqelərini və mülki əhalisinin yaşayış məntəqələrini iriçaplı pulemyotlardan və ağır artilleriyadan müntəzəm atəşə tuturdular. Ermənistanın təxribatları 2020-ci il sentyabrın 27-də İkinci Qarabağ müharibəsinin başlamasına səbəb oldu.

Azərbaycan Ordusunun baş giziri Mehrab Niftəliyev də müharibənin ilk günündən ön cəbhədə oldu. O, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan, Xocavənd, Şuşa uğrunda gedən döyüşlərdə misilsiz hünər göstərdi. Düşmənin xeyli sayda canlı qüvvəsini məhv etdi və texnikalarını sıradan çıxardı, hərbi qənimət kimi ələ keçirdi.

Mehrab döyüşçü əzmkarlığı, qətiyyəti ilə yoldaşlarının rəğbətini qazanmışdı. Baş gizir Mehrab Niftəliyev yaralı silahdaşlarına tibbi yardım da göstərir, döyüşlər zamanı onları və şəhid olmuş hərbi qulluqçuları savaş meydanından çıxarırdı. Qorxmazlığına, igidliyinə, şücaətinə görə döyüş yoldaşları ona "Terminator" deyirlərmiş.

Qəhrəmanın ən böyük arzusu Şuşaya bayrağımızı sancmaq idi. O, igid silahdaşları ilə birgə Şuşanı işğalçı ölkənin silahlı qüvvələrindən azad etməyə, qala şəhərimizi azad etməyə gedirdi...

Mehrab Niftəliyev Şuşaya ilk daxil olan hərbçilərdən biri oldu. O, noyabrın 7-də Şuşa uğrunda gedən döyüşlərdə sol ayağından artilleriya qəlpəsi yarası aldı. Noyabrın 8-də isə elə Şuşada şəhadətə yüksəldi. Noyabrın 11-də Sumqayıt şəhər Şəhidlər xiyabanında torpağa tapşırıldı.

Doğma Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə, işğal olunmuş Qarabağın və Şərqi Zəngəzurun azad olunması zamanı göstərdiyi şücaətə görə dövlət başçısının sərəncamları ilə Mehrab Söhrab oğlu Niftəliyev ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı", "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olundu.

Vətən uğrunda canından keçmiş şəhidlərimizin xatirəsi daim əziz tutulur, adları əbədiləşdirilir. Mehrabın da xatirəsi hər zaman etiramla yad edilir. Quba və Sumqayıtda küçələrə, eləcə də Quba şəhəri Texniki Təmayüllü Liseyə Vətən Müharibəsi Qəhrəmanı Mehrab Niftəliyevin adı verilib.

Şəhid Mehrab Niftəliyevin üç övladı - iki oğlu və bir qızı Vətənə əmanətdir.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

## Şəhid ailələrinin və qazilərin problemlərinin həlli daim diqqət mərkəzindədir



**Daşkəsən Rayon İcra Hakimiyyətində rayonda fəaliyyət göstərən idarə, müəssisə və təşkilat rəhbərlərinin iştirakı ilə şəhid ailələrinin üzvləri və qazilərlə görüş keçirilmişdir.**

Görüşdə Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Orxan Abbasov çıxış edərək diqqətə çatdırmışdır ki, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən Azərbaycanın ərazi bütövlüyü uğrunda canını fəda etmiş şəhidlərimizin ailələrinə və müharibə iştirakçısı olmuş şəxslərə xüsusi diqqət və qayğı göstərilir. Dövlət başçısının müvafiq göstərişlərinə əsasən rayon təşkilatları mütəmadi olaraq şəhid ailələri və qazilərin qayğıları ilə yaxından maraqlanır, problemlərinin aradan qaldırılması üçün mütəmadi olaraq tədbirlər həyata keçirirlər.

Sonra rayon icra hakimiyyətinin başçısı şəhid ailələrinin və qazilərin qayğıları ilə maraqlanmış, onların müraciətlərini dinləmişdir. Şəhid ailələrinin üzvləri və qazilər sosial-məişət problemlərindən, üzləşdikləri çətinliklərdən danışmışlar. Diqqətə çatdırılmışdır ki, şəhid ailələrinin və qazilərin qaldırdıqları məsələlər müvafiq qaydada araşdırılaraq həlli ilə bağlı tədbirlər görüləcək, digər dövlət orqanlarının səlahiyyətlərinə aid olan məsələlər isə nəzarətə götürülməklə aidiyyəti üzrə müraciət olunacaqdır.

Şəhid ailələri və qazilər göstərilən diqqətə və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirmişlər.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

## Şəhid Məmməd Fərzullayevin 50 illik yubileyi qeyd olunub

**Lənkəran rayonundakı F.Hüseynov adına Mamusta kənd Mədəniyyət evinin təşkilatçılığı ilə Birinci Qarabağ müharibəsinin şəhidi Məmməd Fərzullayevin anadan olmasının 50 illik yubileyi qeyd olunub. Tədbirdə şəhidin ailə üzvləri, silahdaşları və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.**



Çıxış edən natiqlər şəhidin şərəfli həyat yolundan və döyüşlərdəki şücaətlərindən bəhs ediblər. Bildirilib ki, Məmməd Mirzəbala oğlu Fərzullayev 1974-cü il iyulun 25-də Lənkəranın Mamusta kəndində anadan olub. Kənd orta məktəbinin səkkizinci sinfini bitirdikdən sonra Moskvada texniki-peşə məktəbində elektrik qaynaqçısı sənətinə yiyələnib. Azərbaycanda baş verən məlum hadisələrlə əlaqədar Məmməd təhsilini yarımçıq qoyaraq Vətənə geri dönüb və 1992-ci ilin sentyabr ayında Şirvan şəhərində həqiqi hərbi xidmətə başlayıb.

Onun ilk döyüş yolu Ağdərədən keçib. Cəsarəti, qorxmazlığı, mübarizliyi ilə taqımda hamıya nümunə olan Məmməd sonradan könüllü kəşfiyyatçılar bölüyünə qoşulub. Ailəsinə yazdığı son məktubu ilk və son əsgərlik şəkli ilə birlikdə noyabrın 4-də gəlib çatıb. Növbəti dəfə kəşfiyyatdan qayıdarkən Məmməd və döyüşçü dostları mühasirəyə düşüblər. Bərabərsiz döyüşdə Məmməd yaralanıb. Buna baxmayaraq o, məkrli düşmənə qarşı son gülləsinə qədər döyüşüb. Çoxlu qan itirdiyinə görə cəsur əsgər qəhrəmancasına həlak olub. Onun cənazəsi doğulub boya-başa çatdığı kəndin qəbiristanlığında torpağa tapşırılıb.

Atası Mirzəbala kişi oğul dərdinə dözməyərək ilinə bir neçə gün qalmış vəfat edib. Cəmi 18 il yaşamış Məmməd Fərzullayev Mamusta kəndinin ilk şəhididir. Təhsil aldığı Mamusta kənd tam orta məktəbi onun adını daşıyır.

Tədbir iştirakçıları şəhid Məmməd Fərzullayevin kənd qəbiristanlığındakı məzarını ziyarət edib, önünə gül dəstələri düzüb ruhuna dualar oxuyublar.

***Ağaddin BABAYEV,***
***Lənkəran***

## Gəncədə şəhid övladları üçün "Yay məktəbi" təşkil edilmişdir

**Gəncədə şəhər icra hakimiyyətinin dəstəyi, YAP Gəncə Şəhər Təşkilatının təşkilatçılığı, "Loqos" Psixoloji və Nitq İnkişaf Mərkəzinin Gəncə Regional filialının tərəfdaşlığı ilə "Yay məktəbi" təşkil olunmuşdur.**



Şəhid övladlarının dünyagörüşünü, bilik və bacarıqlarını artırmaq, vaxtlarını səmərəli keçirmələrinə, yeni tanışlıqlar və dostluqlar əldə etmələrinə dəstək olmaq məqsədilə keçirilən 4 günlük "Yay məktəbi"nin fəaliyyəti zəngin və maraqlı olmuşdur.

Məktəbin açılışında 44 günlük Vətən müharibəsində şəhid olmuş qəhrəmanların övladları Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov və YAP Gəncə Şəhər Təşkilatının sədri Bayram Aslanovla birlikdə Şəhidlər xiyabanına gələrək Vətən övladlarının məzarlarına gül dəstələri düzmüşlər.

YAP Gəncə Şəhər Təşkilatının sədri Bayram Aslanov "Yay məktəbi"nin keçirildiyi ərəfədə uşaqlarla tez-tez görüşmüş, milli-mənəvi dəyərlər, vətənpərvərlik mövzularında söhbətlər etmiş və diqqətə çatdırmışdır ki, onlar yaşa dolduqca atalarının Vətən üçün kim olduqlarını daha dərindən dərk edəcək, "Sən şəhid övladısan!" sözlərindən daha çox qürur duyacaqlar.

"Loqos" Psixoloji və Nitq İnkişaf Mərkəzinin Regional filialının əməkdaşları tərəfindən aparılan təlimlərdə iştirak edən uşaqlar vaxtlarının səmərəli keçirilməsi üçün müxtəlif əyləncəli oyunlarda da iştirak etmiş, cizgi filmlərinə baxmışlar.

Heydər Əliyev Mərkəzinə ekskursiya edən "Yay məktəbi"nin iştirakçıları dahi şəxsiyyətin abidəsini ziyarət etmiş, Ulu Öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əhatə edən fotolara baxmışlar. Sonra dahi şəxsiyyətin ömür yolundan bəhs edən film nümayiş etdirilmişdir.

"Yay məktəbi"nin iştirakçıları müxtəlif ekskursiyalara da getmişlər. Onlar dahi Azərbaycan şairi Nizami Gəncəvinin türbə kompleksində və muzeyində, Qala Qapıları Arxeologiya və Etnoqrafiya Muzey Kompleksində, Azərbaycan Xalq Cümhuriyyəti Muzeyində olmuş, eləcə də Gəncənin tarixi abidələri, müqəddəs yerləri, mədəniyyət mərkəzləri, son illərdə şəhərdə inşa edilən turizm və istirahət məkanlarını gəzmişlər. Göllər tacı Göygölə və eləcə də səfalı Hacıkəndə ekskursiya uşaqlarda xoş təəssürat oyatmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

● İstedadlar

## Qəhrəmanların abidəsini yaradan heykəltaraş

**Gənc heykəltaraş Zamiq Rzayev qəhrəmanlarımıza, qələbəmizə, azadlığa və əsl sahiblərinə qovuşan dəyərlərimizə çoxlu əsərlər ithaf edib. Onun sənət dostu Rahib Qarayevlə birgə hazırladıqları, paytaxtımızın Nərimanov rayonunda ucaldılmış Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun tank üzərində abidəsi çoxları tərəfindən maraqla qarşılanıb.**



Sənət əsəri şəhid tankçının komandiri olmuş Hacı Əzimovun istəyi ilə 5 ay müddətinə hazırlanıb. Və məsələnin təqdirəlayiq cəhəti həm də odur ki, görülən işin müqabilində zəhmətqaqqı alınmayıb, yəni müəlliflər heykəli Albertin ruhuna hədiyyə olaraq düzəldiblər: "Bizə qəhrəmanın heykəlini hazırlamaq şərəfi qismət olmuşdu. Təklifi məmnuniyyətlə qəbul etdik və təmənnasız işə başladıq. Albert Aqarunov Vətən üçün həyatını verib, bizsə vaxtımızı. Bu, insan həyatı ilə müqayisədə heç nədir".

Müharibədən söz düşmüşkən, torpaqlarımızın işğalı, Birinci və İkinci Qarabağ savaşları hər bir azərbaycanlı kimi, Zamiqin də yaradıcı qəlbində, kövrək xatirələrində dərin iz buraxıb. O, xalqımızın mərd oğullarının şərəfinə hazırlanmış çoxsaylı heykəl və büstlərin müəllifidir. Vətən müharibəsi qəhrəmanı, general-leytenant Hikmət Mirzəyevin büstü, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının məzunu, şəhid heykəltaraş Samir Kaçayevin barelyefi, Birinci Qarabağ müharibəsi şəhidləri Natiq Tağıyev və Sakit Tağıyevin abidələri, Vətən müharibəsi şəhidləri Cavid Səfərli və Nicat Şükürlünün büstləri məhz bu qəbildəndir. Qanında, canında vətənpərvərlik hissi hərbi mövzuda əsərlər yaratmasına da öz təsirini göstərir. Zamiq hələ uşaqlıqda rəsmləri ilə müxtəlif müsabiqələrə qatılıb və həmişə də birinci, ikinci yerləri tutub.

Zamiq Süleyman oğlu Rzayev 1989-cu il avqustun 14-ü Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda doğulub. 2005-ci ildə 9 illik təhsilini tamamlayaraq Əzim Əzimzadə adına rəssamlıq kollecinin Heykəltaraşlıq fakültəsinə qəbul olunub. 2011-2015-ci illərdə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının Heykəltaraşlıq fakültəsində bakalavr təhsili alıb. 2017-ci ildə həmin akademiyanın magistr bölməsini bitirib. Gənc heykəltaraşın yaradıcılıq spektri təkcə hərbi vətənpərvərliklə ümumiləşmir, sənət hüdudlarının daha geniş və ən müxtəlif mövzularını əhatə edir. Ölkə üzrə və bir sıra beynəlxalq sərgilərin iştirakçısıdır. 2007-ci ilin fevralında Azərbaycan İstiqlal Muzeyində "Xocalı - qan yaddaşımız", 2008-ci ilin mayında Azərbaycan Dövlət Filarmoniyasında "İnsan alverinə yox deyək" xeyriyyə marafonunda, 2010-cu ilin martında Muzey Mərkəzində keçirilən "Susa bilmirəm", 2011-ci ildə "Crescent Beach Hotel"də rəsm müsabiqəsində, Dövlət Rəssamlıq Akademiyasının muzeyində "AZNAR" adlı sərgidə, 2014-cü ilin avqustunda Gənclər Fondunun maliyyə dəstəyi ilə İçərişəhər, Kiçik Qala küçəsində yerləşən açıq səma altındakı sərgi mərkəzində "Yaşayan tarix", heykəltaraşlıq üzrə portret müsabiqələrində, 2014-ci ildə "Küknar " müsabiqəsində, 2015-ci ildə Moskva simpoziumunda, 2016-cı ildə İtaliya səfirliyinin təşkilatçılığı ilə "Futurizm" sərgisində, 2019-cu ildə Danimarkada keçirilən portret sərgisində iştirak etmişdir. 2015-ci ildə Rəssamlar İttifaqının gənclər bölməsinə üzv seçilib, Gənclər Günü münasibətilə xüsusi mükafata layiq görülüb.

Zamiq 2017-ci ildə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında müəllimlik fəaliyyətinə başlayıb. Tələbələrinə həm sənəti, həm də Vətəni sevməyi, müqəddəs amallar uğrunda mübarizəni, hətta lazım gələrsə, şirin candan keçməyi bacarmağı aşılayıb.

Gənc tişə ustasının həqiqi sənət və sənətkar barədə fikirləri də çox maraqlıdır. Düşünür ki, rəssam, heykəltaraş, yaxud başqası insanlar üçün yaradır, amma özü də həmin cəmiyyətin bir hissəsidir. Yəni ətrafındakı mühitlə, adamlarla, proseslərlə bir tamdır.

***Qurban MƏMMƏDOV,***
***"Azərbaycan"***



# XXXIII Paris Yay Olimpiya Oyunları

## MOK rəsmisindən qələbə şərhi

**"Hidayət Heydərovun qələbəsi Azərbaycan idmanı üçün böyük uğurdur". Bu sözləri Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə Azərbaycan cüdoçusu Hidayət Heydərovun (73 kq) "Paris-2024"də qızıl medal qazanması ilə bağlı danışarkən deyib.**



O, 28 yaşlı idmançının fəxri kürsünün ən yüksək pilləsi uğrunda çox əziyyət çəkdiyini bildirib: "Nəhayət, ağır döyüşlər keçirdi. Fransalı idmançıya qarşı əzmkar mübarizə nümayiş etdirdi. Demək olar ki, əsl xarakterini və tam şəkildə bacarığını göstərə bildi. Bunun sayəsində qalib gəldi. Mən inanıram ki, onun qələbəsi bütün Azərbaycan xalqını sevindirib. Bu gün əsl bayramdır. Bu, ilk uğurumuzdur, amma ümid edirəm ki, son olmayacaq. Bütün olimpiyaçılarımızdan yaxşı nəticələr gözləyirik".

MOK rəsmisinin sözlərinə görə, H.Heydərovun məhz fransız idmançı üzərində qələbə qazanması fərəh hissinə səbəb oldu: "Fransızlar öz təmsilçisini yaxşı dəstəkləyirdilər. Buna baxmayaraq, onlar mükafatlandırma mərasimində Dövlət himnimiz səslənən zaman ayaqüstə idmançımızı alqışladılar. Bu, doğurdan da qürurverici və unudulmaz bir an idi".

Çingiz Hüseynzadə Paris Olimpiadasında iştirak edən digər idmançılarımızın da şanslarını dəyərləndirib: "Boksçumuz Alfonso Dominqes (92 kiloqram) çox çətin rəqibə qarşı mübarizə apardı və nəticədə qalib gəldi. Digər növlərdə ölkəmizi təmsil edən idmançılarımızdan da yüksək nəticələr görmək istəyirik. Təbii ki, Olimpiada kimi mötəbər turnirdə sadəcə medal qazanmaq deyil, 5-6-cı yer tutmaq belə böyük uğur sayılır. Basketbolçu qızlarımızın da yaxşı çıxış edəcəyinə inanırıq. Bu yarışlarda ümumilikdə 9 medala ümid edirəm. Fikrimcə, Parisdəki nəticələrimiz Tokiodakından daha çox olacaq. Təbii ki, istərdim mükafat sayı 9-dan da artıq olsun. Lakin hazırkı proqnozlar bunu göstərir".

## Basketbolda rekord

**"Paris-2024"də keçirilən basketbol yarışlarında rekord qeydə alınıb. 1981-ci il mayın 11-də anadan olan qadınlardan ibarət Avstraliya millisinin üzvü Loren Cekson Nigeriya ilə matçda meydana çıxmaqla olimpiadalar tarixində ən yaşlı basketbolçu olub (həm qadınlar, həm də kişilər arasında).**



43 yaşlı Cekson meydanda olduğu 13 dəqiqə ərzində 6 xal toplayıb. Lakin o, komandasını məğlubiyyətdən xilas edə bilməyib. Belə ki, görüş Avstraliya millisinin qələbəsi ilə yekunlaşıb - 75:62.

## "Hidayət çempionluğu qazandığı zaman ağladım"

**"Hidayətin çempionluğu ilə hər birimiz çox dərin və böyük hisslər yaşadıq". Bunu Azərbaycan Cüdo Federasiyasının vitse-prezidenti Elnur Məmmədli deyib. O, "Paris-2024" Yay Olimpiya Oyunlarında 73 kq çəkidə çempion titulunu qazanan Hidayət Heydərovun uğurunu şərh edib.**



Elnur Məmmədlinin sözlərinə görə, dördilliyin ən mötəbər yarışında Azərbaycan himninin səslənməsi qürurvericidir: "Onun üzərində hamı kimi mənim də əziyyətim var. Hidayət Olimpiya çempionu kimi kürsüyə qalxdıqda və himnimiz səsləndiriləndə bir anlıq qızıl medal qazandığım "Pekin-2008"ə qayıtdım və orada özümü gördüm. Axırıncı dəfə məhz Olimpiya çempionu olarkən ağlamışdım. Daha sonra isə bu il Hidayət Abu-Dabidə dünya və indi Olimpiya çempionluğunu qazandığı zaman gözlərimdən yaş gəldi. 16 ildən sonra 73 kiloqram çəkidə cüdoçumuzun qalib olması mənim üçün ikiqat xoşbəxtlik oldu".

## Ramil Vəlizadə mübarizəni dayandırdı

**Azərbaycan üzgüçüsü Ramil Vəlizadə "Paris-2024"də çıxışını başa vurub. 200 metr məsafəyə batterflyay üsulu ilə üzən idmançımız təsnifat mərhələsini adlaya bilməyib.**



Buna onun yekun nəticəsi səbəb olub. Məsafəni 1 dəqiqə 59,77 saniyəyə qət edən üzgüçümüz 27 iştirakçı arasında 25-ci olub, bir idmançı isə yarışa qatılmayıb. Yarımfinala 16 ən yaxşı idmançı yüksəldiyi üçün Ramil mübarizəni dayandırmalı olub.

Qeyd edək ki, təsnifatda ən yaxşı nəticəni macarıstanlı olimpiya rekordçusu Kşiştof Milak göstərib - 1 dəqiqə 53,92 saniyə.



## Dımçenko medal şansını itirdi

***"Paris-2024" Yay Olimpiya Oyunlarının akademik avarçəkmə yarışlarında qadınların 2000 m fərdi yarışında 1/4 final mərhələsi keçirilib. Azərbaycan idmançısı Diana Dımçenko 3-cü qrupda yarışıb. O, birinci zolaqda avar çəkib. Təmsilçimiz "altılıq"da 4-cü yeri tutub.***

**Bununla da olimpiyaçımız C/D yarımfinalına yüksəlib. 1/4 final mərhələsində ilk üç yerin sahibi A/B, digər üç olimpiyaçı C/D yarımfinalına vəsiqə qazanıb.**

**Diana məsafəni 7 dəqiqə 53,76 saniyəyə qət edib. Yovana Arsiç (Serbiya) və Coani Delqadonu (Filippin) qabaqlayan idmançımız Emma Tviq (Yeni Zelandiya), Aureliya-Maksima Katarina Yanzen (İsveçrə) və Virciniya Dias Rivasdan (İspaniya) geri qalıb.**

**Medal şansını itirənlərin iştirakı ilə baş tutacaq C/D yarımfinalında idmançımızın rəqibləri Ti Hue Pam (Vyetnam), Adriana Sanquineti (Peru), Payge Badenhorst (CAR), Keniya Leçuqa Alanis (Meksika) və Elis Özbay (Türkiyə) olacaq. İlk üç yerin sahibi C, digərləri D finalında iştirak edəcək.**

**Qeyd edək ki, A/B yarımfinalları avqustun 1-də, C/D yarımfinalları iyulun 31-də keçiriləcək.**

## Pevtsovun startı təxirə salındı

**"Paris-2024" Yay Olimpiya Oyunlarında dünən keçirilməsi nəzərdə tutulan triatlon yarışı bu günə təxirə salınıb. Azərbaycan idmançısı Rostislav Pevtsovun iştirak edəcəyi yarışla bağlı dünən keçirilən iclasda təxirəsalınmaya qərar verilib.**



Toplantıda "Paris-2024"ün Təşkilat Komitəsinin, Ümumdünya Triatlonunun nümayəndələri, qurumların texniki və tibbi personalı, Beynəlxalq Olimpiya Komitəsi, "Meteo France" təmsilçiləri iştirak ediblər. Sena çayında suyun keyfiyyətini müzakirə edən iclas iştirakçıları yarışın təxirə salınmasını zəruri hesab ediblər.

Son hava məlumatları nəzərə alınaraq, kişilər arasında triatlon yarışının bu gün Bakı vaxtı ilə saat 12:45-ə təyin edilməsi qərara alınıb.

## Tçkayev Olimpiada ilə vidalaşdı

**XXXIII Yay Olimpiya Oyunlarında cüdo yarışları davam edir. Yarışların növbəti günündə kişilərin 81 kq, qadınların isə 63 kq çəki dərəcələrində mübarizə aparılıb.**

Təmsilçimiz Zelim Tçkayev yarışa 1/8 finaldan start verib. Cüdoçumuz Umar Alfa Djalo (Fransa) ilə görüşüb və ipponla qalib gələn rəqib mərhələ adlayıb. Nəticədə Tçkayev Olimpiadaya vida edib.



## Üçqat Olimpiya çempionu koronavirusa yoluxdu

**Olimpiya Oyunlarında iştirak edən britaniyalı üzgüçü Adam Piti koronavirusa yoluxub. Bu barədə Britaniya Milli Olimpiya Komitəsi məlumat yayıb.**



Qeyd olunub ki, 2 gün əvvəl 3 qat olimpiya çempionu brass üsulu ilə 100 metr məsafədə gümüş medal qazandıqdan sonra boğazında ağrılar hiss edib.

29 yaşlı idmançıdan götürülmüş COVID-19 testinin nəticəsi müsbət olub. Parisdə karyerası ərzində olimpiadalarda üçüncü gümüş medalını qazanan A.Piti qarşıdakı estafet yarışlarında iştiraka ümid edir.

## Murad Allahverdiyev qələbə ilə başladı

**"Paris-2024" Yay Olimpiya Oyunlarında boks turniri davam edir. Dünən daha bir təmsilçimiz mübarizəyə qoşulub.**



80 kq çəkidə mübarizə aparan Murad Allahverdiyev 1/8 final görüşünə çıxıb. Abdelrahman Abdelqavvadla (Misir) döyüşən Allahverdiyev 5:0 (30:27, 29:28, 29:28, 29:28, 29:28) hesabı ilə qələbə qazanıb.

Boksçumuz 1/4 final görüşündə avqustun 2-də qazaxıstanlı Nurbek Oralbayla üz-üzə gələcək.

## Kori Qauff Olimpiya kəndindəki şəraitdən şikayətlənib

**Amerikalı tennisçi Kori Qauff öz TikTok səhifəsində Olimpiya kəndindən video yerləşdirib. "On qız üçün iki vanna otağı var" - idmançı yazıb.**



Dünyanın ikinci "raketkası" Kori Qauffun Olimpiya kəndindən videosu Pyotr Çaykovskinin "Qu gölü" musiqisi ilə yayımlayıb. Şərhlərdə istifadəçilərdən biri idmançıların hotelə köçməsini təklif edib. "Məndən başqa bütün tennisçilər hotelə köçdülər. Beləliklə, indi yalnız beş qız, iki vanna otağı var" deyə Qauff cavab verib.

Bundan əvvəl də idmançılar Olimpiya kəndindəki şəraiti dəfələrlə tənqid ediblər. Üzgüçülük üzrə üçqat olimpiya çempionu avstraliyalı Ariarne Titmus bildirib ki, Olimpiya kəndindəki şərait çıxışları çətinləşdirir. Böyük Britaniya idmançıları yemək çatışmazlığından və keyfiyyətsiz qidadan şikayətləniblər, Cənubi koreyalı üzgüçülər isə pis nəqliyyat şəraitinə görə Olimpiya kəndini tərk ediblər.

20 yaşlı Qauff dördqat NBA çempionu Lebron Ceymslə birlikdə Paris Oyunlarının açılış mərasimində ABŞ komandasının bayraqdarı olub.

## "Böyük qayıdış" proqramı sürətlə icra olunur

# Şuşada həyat qaynayır

### Mədəniyyət paytaxtımız daimi yaşamaq üçün daha 21 ailəni qəbul etdi










**Qarabağ və Şərqi Zəngəzura Böyük qayıdış davam edir. Dünən daha bir köç karvanı mədəniyyət paytaxtımız Şuşaya yetişdi.**

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, bu mərhələdə daha 21 ailə - 79 nəfər yurduna qovuşub. Şəhərdə artıq 147 ailənin (570 nəfər) daimi məskunlaşması təmin edilib.

Şuşalılar uzun illərdir həsrətini çəkdikləri dədə-baba torpaqlarına sevinc və qürur hissi ilə qayıdırlar. Füsunkar təbiəti, təmiz havası ilə hər kəsi özünə heyran qoyan Şuşada sakinlərin rahat və firavan həyat şəraiti üçün lazım olan infrastruktur yaradılıb və bu proses davam edir. Müasir şəhərsalma qaydalarına uyğun plan əsasında bərpa edilən şəhərin yeni yaşayış binaları ənənəvi memarlıq üslubunda inşa olunur.

Şəhərin baş planına uyğun hazırlanmış layihəyə əsasən, Şuşada 24 kilometr magistral su kəməri, 44 kilometr içməli, 42 kilometr tullantı və 41 kilometr yağış su şəbəkələri inşa olunacaq. Şəhərdə formalaşan tullantı sularının tam təmizlənib zərərsizləşdirilməsi məqsədilə məhsuldarlığı sutkada 8 min kubmetr olan qurğu inşa ediləcək. Qurğuda emal edilərək təmizlənən su ekoloji duruma zərər vurmadan Qarqarçay çayına axıdılacaq. Şuşa şəhərində yaradılan yeni infrastruktur "Ağıllı su" sistemi əsasında idarə olunacaq.

İsa bulağı da Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi tərəfindən tam bərpa edilib. Mərmərdən hazırlanmış bulağın üzərində milli ornamentlə "İsa bulağı" sözləri yazılıb, su təminatı da tam bərpa olunub. Bulağın ətrafındakı istirahət mərkəzi və restoran milli üslubda təmir edilib, ərazidə abadlıq işləri aparılıb. Təbiətimizin nadir incilərindən sayılan İsa bulağı Şuşa şəhərindən dörd kilometr aralıda, dəniz səviyyəsindən təqribən 1300 metr hündürlükdə meşəlik ərazidə yerləşir.

Azərbaycan xalqının qədim mədəniyyətinin təşəkkül tapdığı Qarabağ və Şərqi Zəngəzur əraziləri öz tarixi, maddi-mədəniyyət və dini abidələri ilə hər zaman zəngin olub. Təəssüf ki, 30 ilə yaxın davam edən işğal dövründə əzəli Azərbaycan torpaqlarında olan bütün dini abidələrə qarşı ermənilər vəhşiliklər törədiblər. Düşmən şəhər və rayonlarımızı, oradakı yaşayış və inzibati binaları, bütün infrastrukturu dağıdıb, təbii sərvətləri talan edib, bu ərazilərdəki dini, tarix və mədəniyyət abidələrini vandalizm aktlarına məruz qoyub.

Şuşanın yenidənqurulması istiqamətində çoxsaylı layihələr həyata keçirilib, işğal dövründə vandalizmə məruz qalan tarixi-mədəni abidələr, tikililər bərpa edilib. Molla Pənah Vaqifin məqbərəsi yenidən qurularaq əzəli görkəminə qaytarılıb, Üzeyir bəy Hacıbəylinin heykəli qoyulub, Bülbülün ev-muzeyi, habelə Rəsm Qalereyası və Xalçaçılıq Qalereyası, "Yuxarı Gövhər ağa", "Aşağı Gövhər ağa", "Saatlı", "Mamayı" Mehmandarov məscidləri və Mehmandarovun evi bərpa edilib. Şuşada Heydər Əliyev Fondu tərəfindən ən geniş bərpa işlərindən biri dağıntıların miqyasına uyğun olaraq məhz "Aşağı Gövhər ağa" məscidində aparılıb.

"Böyük qayıdış" proqramının icrası çərçivəsində bu günə qədər 8 minə yaxın keçmiş məcburi köçkün Laçın, Füzuli, Şuşa, Xocalı şəhərlərinə və dörd kəndə qayıdıb. Bu ilin sonuna qədər 20 min vətəndaşımız əzəli torpaqlarına qovuşacaq.

Düşmənin viran qoyduğu şəhər və kəndlərimiz yenidən qurulduqca uzun illərdir torpaq həsrəti yaşayan keçmiş məcburi köçkünlər mərhələli şəkildə doğma yurdlarına dönürlər. Artıq 2018 ailə - 7841 nəfər əzəli məskənlərinə qayıdıb. İndiyədək 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndində, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndində, 534 ailə (1971 nəfər) Laçın şəhərində, 822 ailə (3132 nəfər) Füzuli şəhərində, 217 ailə (823 nəfər) Laçın rayonunun Zabux kəndində, 59 ailə (215 nəfər) Laçın rayonunun Sus kəndində, 147 ailə (570 nəfər) Şuşa şəhərində, 44 ailə (169 nəfər) Xocalı şəhərində məskunlaşıb.

Bu son deyil. Hələ neçə-neçə şəhər və kəndlərimiz sakinlərinə qovuşacaq. 2026-cı ilin sonunda Böyük qayıdışın birinci mərhələsi bitəcək. O zamana qədər Qarabağ və Şərqi Zəngəzurda 34 min 500 ailənin təhlükəsiz məskunlaşması təmin ediləcək. Uzun illər işğal altında qalan torpaqlarımızda düşmənin qoyduğu izləri silmək asan olmasa da, qüdrətli dövlətimiz qarşısına qoyduğu bütün məqsədlərə nail olduğu kimi, bunun da öhdəsindən layiqincə gələcək.

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***

### *Keçmiş məcburi köçkün:* "Şuşada doğulmasam da, o torpaqların həsrəti ilə yaşamışam"




**"Doğrudur, mən Şuşada doğulmamışam, böyüməmişəm, ancaq hər an oranın həsrəti ilə yaşamışam. Bir neçə dəfə getdiyim o müqəddəs torpaq məndə elə bir hiss buraxıb ki, 30 ildən çoxdur o torpaqların xəyallarını qururam".**

AZƏRTAC xəbər verir ki, bu sözləri dünən Şuşa şəhərinə köç edən keçmiş məcburi köçkün Ruhiyyə Kazımova bildirib.

"Bu gün müəllim kimi fəaliyyət göstərirəm. İstəyərəm ki, işimi orada da davam etdirim", - deyə o qeyd edib.

### *Şuşa sakini:* "Çox sevinirik ki, artıq bizə məcburi köçkün deyilməyəcək"




**"Ömrümüzün ən gözəl çağları Şuşada keçib. Həyatın amansız sınaqları ilə üz-üzə qalsaq da, ümidimizi, inamımızı heç vaxt itirməmişik. Çox sevinirik ki, artıq bizə məcburi köçkün deyilməyəcək. Biz Şuşanın sahibləriyik, bundan sonra öz doğma yurdumuzda əmin-amanlıq içərisində yaşayacağıq".**

Bu fikirləri Şuşa şəhərinə qayıdan keçmiş məcburi köçkün Firuzə Quliyeva deyib.

F.Quliyeva bu cür şərait və dəstəyə görə ölkə Prezidentinə dərin təşəkkürlərini bildirib: "Bu günləri bizə yaşatdığı üçün Ali Baş Komandanımıza, müzəffər ordumuza minnətdarıq. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin!".

### *Şuşanın 10 yaşlı sakini:* "Valideynlərim deyirdilər ki, biz mütləq yurdumuza qayıdacağıq"



**"Valideynlərim həmişə mənə Şuşa barəsində danışırdılar. Deyirdilər, biz mütləq ora qayıdacağıq, səni İsa bulağına aparacağıq".**

Bunları Şuşanın 10 yaşlı sakini Zəhra Quliyeva deyib.

"Şuşaya getməyimə çox sevinirəm. Hiss edirəm ki, öz yurduma qayıdıram. Sevincimin həddi-hüdudu yoxdur. Şuşada yeni rəfiqələrim olacaq. Axır ki, bu şəhəri görə biləcəyəm. Orada məktəbə gedəcəyəm, təhsilimi davam etdirəcəyəm", - Zəhra əlavə edib. Z.Quiyeva qeyd edib ki, valideynləri Şuşanın gözəl təbiətini daim təsvir ediblər: "İgid əsgərlərimiz Şuşanı işğalçı ermənilərdən azad etdilər. Allah şəhidlərimizə rəhmət eləsin. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır".


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# "YAŞAT" Fondunun Londondakı yay məktəbi başa çatıb









**"YAŞAT" Fondunun təşkilatçılığı, "Azərkontrakt" Açıq Səhmdar Cəmiyyətinin baş sponsorluğu və "Azərbaycan Hava Yolları" QSC-nin tərəfdaşlığı ilə Birləşmiş Krallığın paytaxtı Londonda reallaşdırılan ikinci "YAŞAT" yay məktəbi uğurla başa çatıb.**

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən AZƏRTAC-a verilən məlumata görə, iyulun 13-dən 27-dək olan müddəti əhatə edən yay məktəbi London Universitet Kollecində keçirilib və proqram müddətində iştirakçılar gündəlik 3 saatlıq ingilis dili dərslərinə cəlb olunublar.

Proqram çərçivəsində iştirakçılar bir-birindən maraqlı ekskursiyalara qatılıblar. Bu sırada dünyada mum heykəlləri ilə məşhurlaşan Madam Tüsso Muzeyini, Londondakı Bukinqem sarayını, Londonun gözü adlandırılan və 135 metr yüksəklikdə yerləşən, Avropanın ən hündür əyləncə çarxını qeyd etmək olar.

Layihə iştirakçıları Diaspora İş üzrə Dövlət Komitəsinin dəstəyi, Britaniya Azərbaycan Cəmiyyətinin təşkilatçılığı ilə onlar üçün təşkil olunan ziyafətə qatılıblar. Yay məktəbinin iştirakçılarına sertifikatlar da təqdim olunub.

Layihənin əsas məqsədi şəhid övladlarının dünyagörüşünü, bilik və bacarıqlarını artırmaq, mədəniyyət mübadiləsində aktiv iştiraklarını təmin etmək, vaxtlarını səmərəli keçirmələrinə, yeni tanışlıqlar və dostluqlar əldə etmələrinə dəstək olmaqdır.

Yay məktəbi ölkəmizdə 9-cu sinif üzrə buraxılış imtahanında ən uğurlu nəticə əldə etmiş 12 şəhid övladını əhatə edib.

Xatırladaq ki, ötən il yay məktəbi Almaniyanın Frankfurt şəhərində keçirilmişdi.

# Bu günün hava proqnozu açıqlanıb

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, iyulun 31-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Cənub-qərb küləyi əsəcək, gündüz mülayim şimal-qərb küləyi ilə əvəzlənəcək, axşama doğru arabir güclənəcək. Havanın temperaturu gecə 20-24°, gündüz 28-33° isti olacaq. Atmosfer təzyiqi 754 millimetr civə sütunu, nisbi rütubət gecə 40-50, gündüz 60-70 faiz təşkil edəcək.

Abşeron çimərliklərində cənub-qərb küləyi əsəcək, gündüz mülayim şimal-qərb küləyi ilə əvəzlənəcək, axşama doğru arabir güclənəcək. Dəniz suyunun temperaturu şimal çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zuğulbada 24-25°, cənub çimərliklərində - Türkan, Hövsan, Sahil, Şıxda 25-26° isti olacaq.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 17-22°, gündüz 30-35° isti, dağlarda gecə 10-15°, gündüz 16-21° isti olacağı ehtimal edilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava şəraitinin əsasən yağmursuz keçəcəyi ehtimalı var. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Mülayim şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 15-20°, gündüz 27-32° isti olacağı proqnozlaşdırılır.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygöl rayonlarında hava şəraitinin əsasən yağmursuz olacağı, lakin gündüz bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq, şərq küləyi əsəcək. Havanın temperaturu gecə 10-15°, gündüz 20-25°, bəzi yerlərdə 28° isti olacaq.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 10-15°, gündüz 18-23°, bəzi yerlərdə 28° isti olacağı bildirilir.

Gəncə və Naftalan şəhərlərində, Qazax, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 15-20°, gündüz 27-32° isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava şəraitinin əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacağı ehtimal edilir. Mülayim şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 15-20°, gündüz 24-29° isti, dağlarda gecə 10-15°, gündüz 15-20° isti olacağı ehtimalı var.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Ağdaş, Saatlı, Göyçay, Ucar, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava yağmursuz keçəcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 17-22°, gündüz 30-35° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarında hava əsasən yağmursuz keçəcək. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 17-22°, gündüz 25-30° isti, dağlarda gecə 14-16°, gündüz 18-22° isti olacaq.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

## ALLAH RƏHMƏT ELƏSİN!

Akademik Mehdi Mehdizadə adına Cəbrayıl şəhər tam orta məktəbinin 1980-ci il buraxılışı 10ª sinfinin məzunları sinif yoldaşları Rövşən Şərifova bacısı

**KƏMALƏ RAMAZAN QIZI ŞƏRİFOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3522
Sifariş 1678

Qiyməti 60 qəpik